ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELM VƏ TƏHSİLİN ƏSASLARI
# XX BEYNƏLXALQ ELMİ KONFRANS

**ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı**

# FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
# XX INTERNATIONAL SCIENTIFIC CONFERENCE

**SCIENTIFIC RESEARCH Special issue of the International Scientific Journal**

**Bakı, Azərbaycan**
**05 iyun 2026**

# ELM VƏ TƏHSİLİN ƏSASLARI
# XX BEYNƏLXALQ ELMİ KONFRANS
**ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı**

---

https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
# XX INTERNATIONAL SCIENTIFIC CONFERENCE
**SCIENTIFIC RESEARCH Special issue of the International Scientific Journal**

**05 iyun 2026**

# Beynəlxalq indekslər - Indexing & Abstracting Services

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessaryto use reference while using the journal materials.
© bek.tedqiqat@aem.az
© info@aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

### Sədr

**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan

### Sədr müavinləri

**Prof. Dr. Təyyar CAVADOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə

### Məsul katib

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

### ÜZVLƏR

**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Vaqif ABBASOV**, ARETN Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR**, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa

**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Leyla VƏZİROVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya

**Assoc. Prof. Dr. Mehriban İMANOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Taleh CƏFƏROV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

## THE ORGANIZING COMMITTEE

**Chairman**

**Prof. Dr. Haji HASANOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS/ Azerbaijan

**Deputy chairmen**

**Prof. Dr. Tayyar JAVADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey

**Executive secretary**

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**MEMBERS**

**Prof. Dr. Karim SHUKUROV,** ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician
Y.H.Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR,** University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Garib MURSHUDOV,** Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Rufat RUSTAMOV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Sayyara IBADULLAYEVA**, Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Arzu SARDARLI,** First Nations University of Canada / Canada
**Prof. Dr. Nadir ILHAN,** Ahi Evran University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA,** Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Maharram MAMMADLI,** Baku State University / Azerbaijan
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA,** Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan

**Prof. Dr. Leyla VAZİROVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Mehriban IMANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALİYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia

**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan
**Assoc. Prof. Dr. Taleh JAFAROV,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 7-12
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 7-12
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

## Mətnin struktur və semantik xüsusiyyətləri

**Bənövşə Əsgərova**

***Açar sözlər:*** *mətn strukturu, semantika, koheziya, koherensiya, diskurs*
***Keywords:*** *text structure, semantics, cohesion, coherence, discourse analysis*

Mətn insanların fikir və düşüncələrini başqalarına çatdırmaq üçün istifadə etdiyi əsas ünsiyyət vasitələrindən biridir. Hər bir mətn müəyyən qaydalar əsasında qurulur və özündə həm struktur, həm də semantik xüsusiyyətləri birləşdirir. Bu xüsusiyyətlər mətnin həm düzgün anlaşılmasına, həm də təsirli olmasına xidmət edir. İlk növbədə, mətnin struktur xüsusiyyətləri onun quruluşunu müəyyən edir. Hər bir mətn, adətən, üç əsas hissədən ibarət olur: giriş, əsas hissə və nəticə. Giriş hissəsində mövzu təqdim edilir və oxucunun diqqəti cəlb olunur. Əsas hissədə mövzu geniş şəkildə izah edilir, fikirlər əsaslandırılır və nümunələrlə zənginləşdirilir. Nəticə hissəsində isə ümumiləşdirmə aparılır və əsas fikir yekunlaşdırılır. Bundan əlavə, mətn abzaslara bölünür və hər abzas müəyyən bir fikri ifadə edir.

---

Azərbaycan Dövlət Pedaqoji Universiteti, filologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: tt.aaa.2014@mail.ru

Mətnin semantik xüsusiyyətləri isə onun məzmunu və mənası ilə bağlıdır. Hər bir mətn müəyyən bir mövzuya həsr olunur və əsas ideyanı ifadə edir. Mətnin bütün cümlələri bu ideya ətrafında birləşərək məzmun bütövlüyü yaradır. Semantik baxımdan mətnin məntiqi olması, fikirlərin bir-birini tamamlaması və ziddiyyət yaratmaması vacibdir. Eyni zamanda, mətnin konteksti sözlərin və ifadələrin düzgün başa düşülməsinə kömək edir. Bəzən mətnlərdə açıq şəkildə ifadə olunmayan, lakin oxucu tərəfindən başa düşülən alt mənalar da mövcud olur.

Mətn dilçilikdə yalnız cümlələr toplusu deyil, müəyyən qaydalar əsasında təşkil olunmuş vahid sistem kimi qəbul edilir. Mətnin struktur xüsusiyyətləri onun necə qurulduğunu, hissələrin bir-biri ilə necə əlaqələndiyini və fikirlərin hansı ardıcıllıqla təqdim olunduğunu göstərir. Bu xüsusiyyətlər mətnin oxunaqlı, anlaşıqlı və məntiqli olmasını təmin edir. Mətnin əsas struktur elementlərindən biri kompozisiyadır. Kompozisiya mətnin ümumi quruluşunu – giriş, əsas hissə və nəticə ardıcıllığını əhatə edir. Giriş hissəsində mövzu təqdim olunur, əsas hissədə fikir geniş izah edilir, nəticədə isə ümumiləşdirmə verilir. Bu struktur oxucuya fikirləri sistemli şəkildə izləməyə imkan yaradır. Struktur xüsusiyyətlərə, həmçinin, məntiqi ardıcıllıq daxildir. Mətn daxilində fikirlər səbəb-nəticə, zaman və ya müqayisə əlaqələri əsasında düzgün sıralanmalıdır. Əgər bu ardıcıllıq pozularsa, mətnin anlaşılması çətinləşir və əsas fikir itir.

Mətnin semantik xüsusiyyətləri mətnin mənası və məzmunu ilə bağlıdır. Yəni mətnin nə haqqında olduğu və hansı ideyanı ifadə etdiyi semantika ilə müəyyən olunur. Semantik xüsusiyyətlərə daxildir: mövzu (topic), əsas fikir (ideya), məzmun bütövlüyü, məntiqilik və ardıcıllıq, alt məna (implicature). Mətnin struktur və semantik xüsusiyyətləri bir-biri ilə ayrılmaz şəkildə bağlıdır və birlikdə mətnin həm formalaşmasını, həm də düzgün qavranılmasını təmin edir. Struktur mətnin necə qurulduğunu

göstərirsə, semantika onun hansı mənanı ifadə etdiyini müəyyən edir. Bu iki amil bir-birini tamamlayaraq mətnin bütövlüyünü yaradır. Struktur mətnin formasını, semantika isə onun məzmununu təşkil edir. Güclü struktur olmadan fikir qarışıq görünə bilər, zəif semantika isə düzgün qurulmuş mətni mənasız edə bilər. Struktur mətnin məntiqi ardıcıllığını təmin edir. Giriş, əsas hissə və nəticə kimi bölmələr fikirlərin sistemli şəkildə təqdim olunmasına kömək edir. Əgər struktur düzgün qurulmazsa, mətn qarışıq görünər və oxucu əsas fikri anlamaqda çətinlik çəkər. Məhz bu səbəbdən struktur semantikanın aydın çatdırılması üçün əsas rol oynayır.

Digər tərəfdən, semantika struktura məna verir. Eyni struktur müxtəlif məzmunlarla doldurula bilər. Əgər mətnin məzmunu zəif, məntiqsiz və ya ziddiyyətlidirsə, ən yaxşı struktur belə onu xilas edə bilməz. Yəni struktur yalnız formadır, semantika isə həmin formanı dolduran məzmundur. Mətnin keyfiyyətini müəyyən edən əsas amillərdən biri onun bütövlüyüdür. Dilçilikdə bu xüsusiyyət iki əsas anlayışla – koherensiya və koheziya ilə izah olunur. Bu anlayışlar mətnin həm məzmun, həm də forma baxımından necə təşkil olunduğunu göstərir və onun aydın şəkildə qavranılmasına xidmət edir.

Koherensiya mətnin məna baxımından bütöv və məntiqi olmasını ifadə edir. Yəni mətnin bütün hissələri eyni mövzu ətrafında birləşməli və bir-birini tamamlamalıdır. Bu baxımdan, "mətn o zaman koherent sayılır ki, onun bütün komponentləri vahid ideyanı ifadə etsin." Əgər mətn daxilində fikirlər arasında uyğunsuzluq yaranarsa, oxucu əsas məzmunu anlamaqda çətinlik çəkər. Koheziya isə mətnin formal tərəfi ilə bağlıdır və cümlələr arasında dil vasitələri ilə qurulan əlaqəni ifadə edir. Bu barədə belə demək olar: "Koheziya mətnin daxili 'bağlarını' yaradan qrammatik və leksik vasitələrin məcmusudur."

Bağlayıcı sözlər, əvəzliklər, sinonimlər və leksik təkrarlar bu əlaqəni təmin edən əsas vasitələrdir.

Mətnin bütöv görünməsi üçün müxtəlif dil vasitələrindən istifadə olunur. Bağlayıcı sözlər fikirlər arasında əlaqə yaradır, səbəb-nəticə və qarşılaşdırma münasibətlərini ifadə edir. Əvəzliklər isə təkrarın qarşısını alaraq mətnin axıcılığını təmin edir. Məsələn, "Kitab maraqlıdır. O, çox oxunur." cümləsində "o" əvəzliyi əvvəlki fikrə istinad edərək əlaqə yaradır. Bu kimi vasitələr olmadan mətn "parçalanmış" təsir bağışlayar.

Digər mühüm məsələ məntiqi ardıcıllıqdır. Mətn daxilində fikirlər düzgün sıra ilə təqdim olunmalıdır. Əgər bu ardıcıllıq pozularsa, "mətnin semantik bütövlüyü zəifləyir və əsas fikir itib gedir." Bu zaman oxucu mətni izləməkdə çətinlik çəkir və nəticədə mətnin təsir gücü azalır.

Nəticə etibarilə, koherensiya və koheziya mətnin ayrılmaz xüsusiyyətləridir. Birincisi məzmunun məntiqini, ikincisi isə formanın əlaqəliliyini təmin edir. "Yaxşı mətn yalnız düzgün qurulmuş cümlələr toplusu deyil, həm də vahid və məntiqi şəkildə təşkil olunmuş fikir sistemidir." Buna görə də mətn yaradarkən həm məna, həm də struktur baxımından bütövlüyə nail olmaq əsas məqsəd olmalıdır. Bu qarşılıqlı əlaqəni belə izah etmək olar: struktur "skelet", semantika isə "ruh" kimidir. Skelet olmadan bədən dağılır, ruh olmadan isə mənasız olur. Mətn də eyni prinsip əsasında qurulur.

Nəticə olaraq, uğurlu və təsirli mətn yaratmaq üçün həm struktur, həm də semantik xüsusiyyətlərə eyni dərəcədə diqqət yetirmək vacibdir. Onların harmoniyası mətnin aydın, məntiqli və oxunaqlı olmasını təmin edir. Struktur zəif olduqda fikirlər qarışıq və nizamsız təqdim olunur. Bu zaman: Cümlələr və abzaslar arasında əlaqə pozulur, oxucu əsas fikri seçə bilmir,

mətn “parçalanmış” təsir bağışlayır. Məsələn, əgər nəticə əvvəl, əsas fikir isə sonda verilirsə və ya fikirlər ardıcıllıqla qurulmayıbsa, oxucu mətnin nə demək istədiyini tam anlaya bilmir. Yəni məna var, amma düzgün çatdırılmadığı üçün “itmiş” kimi görünür.

Güclü struktur fikirləri sistemli və məntiqli şəkildə təqdim edir: Oxucu addım-addım mövzunu izləyir, əsas fikir aydın şəkildə önə çıxır, bağlayıcılar mətnin axıcılığını təmin edir. Bu halda məzmun daha rahat qavranılır, çünki oxucu “haradan başlayıb, hara gedir” sualına cavab tapa bilir. Yəni struktur məzmunu “daşıyan çərçivə” rolunu oynayır. Məzmun (semantika) əsasdır, çünki fikir olmasa, mətnin mənası yoxdur. Forma (struktur) isə bu fikri düzgün çatdırmaq üçün vacibdir. Yaxşı mətn o mətn sayılır ki, dəyərli məzmunu düzgün strukturla təqdim edir. Bu iki amil bir-birini tamamlayır və ayrı-ayrılıqda tam effekt vermir.

Mətn dilçilikdə yalnız cümlələr toplusu deyil, həm də məna və struktur baxımından vahid sistem kimi qəbul edilir. Bu vahidlik koherensiya (məzmun bütövlüyü) və koheziya (formal əlaqə) anlayışları ilə izah olunur. Bu iki xüsusiyyət mətnin oxucu tərəfindən düzgün başa düşülməsində əsas rol oynayır. Elmi mətnlərdə semantika da dəqiq və birmənalı olur. Terminlər konkret mənada istifadə edilir və emosional ifadələrdən qaçılır. Bədii mətnlərdə struktur daha sərbəstdir və müəllif yaradıcılıq imkanlarından geniş istifadə edir. Bədii mətnlərdə semantika çoxqatlı olur. Bir söz həm birbaşa, həm də məcazi mənada işlənə bilər. Bu, oxucuya müxtəlif interpretasiya imkanları yaradır. Hadisələrin ardıcıllığı bəzən pozula bilər, keçmiş və indiki zaman qarışdırıla bilər. Publisistik mətnlərin əsas məqsədi oxucunu məlumatlandırmaq və təsir etməkdir. Bu mətnlərdə həm elmi dəqiqlik, həm də bədii ifadəlilik elementləri birləşə bilər.

Sosial mediada mətnlərin strukturu ənənəvi akademik modeldən (giriş–inkişaf–nəticə) fərqlənir. Burada mətnlər daha çox qısa, fraqmentləşdirilmiş və vizual elementlərlə zəngin formada təqdim olunur. Qısa mətnlərdə (postlar, mesajlar) semantikanın qorunması isə minimal dil vasitələri və kontekst asılılığı ilə həyata keçirilir. Müasir dövrdə mətn artıq yalnız yazılı informasiya deyil, həm də çoxqatlı kommunikasiya sistemidir. Sosial mediada struktur daha sərbəst və qısa formaya keçmiş, semantika isə kontekst və oxucu interpretasiyası ilə tamamlanmağa başlamışdır. Emojilər və digər qeyri-verbal vasitələr isə mətnin emosional və mənəvi yükünü artıraraq onun daha effektiv ünsiyyət vasitəsinə çevrilməsinə şərait yaradır. Mətnin struktur və semantik xüsusiyyətləri onun əsas dayaqlarını təşkil edir. Struktur mətnin formalaşmasını, semantika isə onun mənaca dolğunluğunu təmin edir. Bu iki komponentin vəhdəti mətnin aydın, məntiqli və effektiv olmasını təmin edir.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 13-16
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 13-16
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Ekzotik leksika, onun semantik konnotativ mənaları

**Faidə İsayeva**

***Açar sözlər:*** *xarici dil, leksika, coğrafi bölgə, mədəni və sosial amil*
***Keywords:*** *foreign language, vocabulary, geographical region, cultural and social factor*

Ekzotik leksika, bir dilə xarici mədəniyyətlərdən və coğrafi bölgələrdən daxil olan kəlmələrdən ibarətdir. Bu kəlmələr, yerli dilin strukturuna uyğun olmayan və yad elementləri daşıyan ifadələrdir. Ekzotik leksikanın yaranma səbəbləri müxtəlif tarixi, mədəni və sosial amillərlə əlaqəlidir. Ticarət, müharibələr, mədəni mübadilə və kolonializmin təsirləri ilə ekzotik kəlmələr çoxsaylı dillərə daxil olmuşdur. Alimlərdən biri, məşhur dilçi E.Haugenə görə "*ekzotik leksika təkcə dilçilərin araşdırdığı bir fenomen olmaqla məhdudlaşmır, eyni zamanda, mədəni əlaqələrin bir təzahürü kimi də meydana çıxır.*" Ekzotik leksikanın mənşəyi və tarixi kökləri, uzun müddət müxtəlif mədəniyyətlərin və dillərin qarşılıqlı təsiri nəticəsində formalaşmışdır. Müxtəlif ərazilər arasında gedən ticarət və mədəni mübadilə prosesi, ekzotik kəlmələrin dillərə daxil olmasına səbəb olmuşdur.

---

Azərbaycan Dövlət Pedaqoji Universiteti, pedaqogika üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: faida.isayeva@mail.ru

Tarixən, Asiya, Afrika və Orta Şərq kimi regionlarla ticarət əlaqələri qurmuş Qərb dünyası, həmin ərazilərin dilindəki sözləri öz dilinə mənimsəmişdir. Məsələn, türk dilindəki “ köşk” və “kahve” kimi sözlər Qərbin Türk dünyası ilə əlaqələrinin nəticəsi olaraq dillərə “coffee “ və “kiosk” kimi daxil olmuşdur.

Eyni zamanda, müharibələr və kolonializm dövrlərində də ekzotik leksika dillərə daxil olmuşdur. Məsələn, ingilis dilinə daxil olan “bungalow”  və “yoga” kimi sözlər, Britaniyanın Hindistandakı kolonial təsirinin nəticəsidir. Bu kəlmələr yalnız bu mədəniyyətlərə aid olmaqla qalmamış, həm də qərb dünyasında yeni bir həyat tərzini və düşüncə tərzini simvollaşdırmağa başlamışdır. Kolonializmin yaratdığı əlaqələr, müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirini artırmış və nəticədə, ekzotik kəlmələrin yayılmasına səbəb olmuşdur. Kolonial dövrün bir başqa nəticəsi də, bu kəlmələrin yalnız leksik və semantik olaraq qalmaması, həm də mədəni təsirlər vasitəsilə dillərə daxil olmasıdır. Məsələn, “bonsai”  və “kimono” kimi sözlər, yapon mədəniyyətinin bir hissəsi olaraq, daha sonra müxtəlif dillərdə bu ölkənin təfəkkür və estetik anlayışlarını daşıyan simvollara çevrilmişdir.

Ekzotik leksikanın semantik mənası və istifadə formaları çox zaman mədəniyyətlərarası fərqliliklərlə əlaqəlidir. Bir kəlmənin mənası yalnız sözün mənşəyinə deyil, həm də həmin mədəniyyətin dünyagörüşünə, sosial quruluşuna və ətraf mühitinə bağlıdır. Məsələn, yapon dilində “sushi” yalnız bir növ yemək deyil, həm də yapon mədəniyyətinin və estetik dəyərlərinin təzahürüdür. İngilis dilində “sushi” sözü, zamanla yalnız yapon yeməyi olaraq qəbul edilməyib, həm də yapon mədəniyyətinə dair bir təcrübə və simvola çevrilmişdir. Burada, bir kəlmənin semantik yükü həm mədəniyyətin estetik və sosial kodlarını əks etdirir, həm də həmin mədəniyyətin dünyaya baxışını daşıyır. Bu tip sözlərin məna strukturu həm də

mədəniyyətlərarası qarşılıqlı təsir nəticəsində genişlənə bilər. "Detoks" sözü həm ingilis, həm də Azərbaycan dillərində geniş yayılıb və yalnız fiziki sağlamlıqla əlaqəli deyil, həm də zehni və emosional təmizlənmə anlayışını ifadə edir. İngilis dilində, "I'm going on a detox this weekend" deyildikdə, bu, yalnız pəhriz və ya orqanizm təmizləməsi deyil, həm də daha geniş bir yeni başlanğıc və sağlam həyat tərzi mənasına gəlir. Azərbaycan dilində də, "Bu yaz mənim üçün tam bir detoks olacaq" cümləsində, bu söz yalnız fiziki təmizlənmə ilə məhdudlaşmır, eyni zamanda, zehni rahatlıq və stressdən uzaqlaşma kimi geniş mənalar daşıyır. Bu da "detoks"  sözünün zamanla sosial və emosional təmizlənmə ilə əlaqəli bir anlayışa çevrildiyini göstərir.

Ekzotik leksikanın konnotativ mənaları da özəl bir əhəmiyyət kəsb edir. Bu sözlər yalnız konkret semantik anlamlarla məhdudlaşmır, eyni zamanda, müəyyən emosional və mədəni yüklər daşıyır. Məsələn,  ingilis dilindəki " zen" sözü də maraqlı konnotativ dəyişikliklərə məruz qalan ekzotik leksik vahidlərdən biridir. Əslən yapon mənşəli olan bu söz, zen-buddizm fəlsəfəsində daxili sakitlik, meditasiya və mənəvi maariflənmə anlayışlarını ifadə edir. Lakin müasir ingilis dilində "zen" artıq gündəlik ünsiyyətdə daha geniş və simvolik mənada işlədilir. Məsələn, "I try to stay zen during busy workdays'  kimi ifadələrdə söz sakitlik, stressdən uzaqlıq və emosional tarazlıq kimi qəbul edilir. Bu isə göstərir ki, sözlər yalnız mənbə mədəniyyətində deyil, qəbul edildikləri cəmiyyətlərdə də yeni məna çalarları ilə formalaşır və zamanla fərqli konnotativ yüklər qazanırlar.

Bu proses, qloballaşmanın gətirdiyi yeni mədəniyyətlərarası mübadilə nəticəsində çoxsaylı dil və mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın və əlaqənin yaranmasına səbəb olmuşdur. Bu vəziyyət, ekzotik leksikanın qlobal miqyasda dilin və

mədəniyyətin qovuşduğu nöqtələrdə yeni anlamlar qazandığını göstərir. Bu, həm də mədəniyyətlərarası əlaqələrin zənginləşdiyini və bir çox cəmiyyətin bu sözlər vasitəsilə digər mədəniyyətləri daha yaxından tanımağa başladığını nümayiş etdirir.

Beləliklə, ekzotik leksikanın mənşəyi və tarixi kökləri çoxsaylı tarixi, sosial və mədəni hadisələrin nəticəsidir. Ticarət, müharibələr, kolonializm və müasir qloballaşma bu leksikanın formalaşmasında mühüm rol oynamışdır. Həmçinin, ekzotik leksika yalnız dilin zənginliyini artırmaqla qalmır, həm də fərqli mədəniyyətlərin anlayışlarını və dünyagörüşlərini digər dillərə və cəmiyyətlərə ötürməkdə mühüm rol oynayır. Ekzotik leksika, həm tarixi, həm də müasir dövrdə mədəniyyətlərarası əlaqələrin güclənməsinə xidmət edir. Məsələn, ingilis dilindəki "typhoon" sözü, çin və yapon dillərindən alınmışdır və "böyük külək" mənasını verir. Bu, Asiya bölgələrində baş verən təbii fəlakətlərin təsviri kimi qəbul edilmişdir və zamanla qlobal dilə daxil olmuşdur.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 17-20
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 17-20
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Müasir dövrdə kamança ifaçılığı

**Yaqut Əliyeva**

***Açar sözlər:*** *kamança, muğam, ifaçılıq, Azərbaycan musiqisi, etno-caz*
***Keywords:*** *kamancha, mugham, performance, Azerbaijani music, ethno-jazz*

Kamança Azərbaycan musiqi mədəniyyətinin ən qədim və ən ifadəli simli-yaylı alətlərindən biridir. Onun tarixi Orta Şərq və Qafqaz musiqi ənənələri ilə sıx bağlıdır və əsrlər boyu həm xalq musiqisində, həm də klassik muğam sənətində əsas melodik alətlərdən biri kimi formalaşmışdır. Kamançanın səsi insan səsinə yaxın tembri ilə seçilir və bu xüsusiyyət onu xüsusilə muğam ifaçılığında əvəzolunmaz edir. Azərbaycan musiqi sistemində kamança yalnız müşayiətçi alət deyil, həm də emosional və improvizasiya imkanlarına malik solo ifa vasitəsidir. O, tar və qaval ilə birlikdə muğam üçlüyünün əsas strukturunu təşkil edir. Bu üçlükdə kamança melodiyanın dərin emosional qatlarını ifadə edir, muğamın fəlsəfi və bədii məzmununu dinləyiciyə çatdırır.

Müasir dövrdə kamança ifaçılığı həm ənənəvi, həm də yenilənmiş formada inkişaf edir. Qloballaşma və mədəni inteqrasiya prosesləri nəticəsində bu alət təkcə Azərbaycan sərhədləri daxilində deyil, beynəlxalq musiqi səhnələrində də tanınmağa başlamışdır.

---

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
E-poçt: eliyevayaqut12@gmail.com

Bununla yanaşı, konservatoriya və musiqi məktəblərində sistemli tədrisin aparılması kamança ifaçılığının elmi-metodik əsaslarla inkişafına şərait yaratmışdır. Eyni zamanda, müasir texnologiyalar və musiqi istehsalı imkanları kamançanın yeni janrlara daxil olmasına səbəb olmuşdur. Bu gün o, caz, etno-caz, film musiqisi və hətta elektron musiqi layihələrində istifadə edilir. Bu proses kamançanın yalnız tarixi bir alət deyil, həm də müasir musiqi düşüncəsinə uyğunlaşa bilən dinamik bir sənət vasitəsi olduğunu göstərir.

Müasir dövrdə kamança ifaçılığı Azərbaycan musiqi mədəniyyətinin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilmişdir. Bu inkişaf həm ənənənin qorunması, həm də yeni musiqi düşüncəsinə uyğunlaşma prosesi ilə paralel şəkildə gedir. Kamança artıq yalnız muğam ifaçılığının ayrılmaz hissəsi kimi deyil, həm də müxtəlif janrlarda istifadə olunan universal musiqi aləti kimi formalaşmaqdadır. Kamança ifaçılığının inkişafında ən mühüm amillərdən biri onun təhsil sisteminə inteqrasiyasıdır. Azərbaycanda musiqi məktəbləri, orta ixtisas musiqi kollecləri və ali musiqi təhsili müəssisələri bu sahənin elmi-metodik əsaslarla öyrədilməsini təmin edir. Xüsusilə Azərbaycan Milli Konservatoriyası və Bakı Musiqi Akademiyası kimi ali təhsil müəssisələrində kamanca ifaçılığı üzrə ixtisaslaşmış proqramlar mövcuddur. Bu sistem sayəsində tələbələr yalnız ifa texnikasını deyil, həm də muğam nəzəriyyəsini, improvizasiya prinsiplərini və ansambl mədəniyyətini dərindən öyrənirlər. Nəticədə, yeni nəsil ifaçılar klassik ənənəni qorumaqla yanaşı, onu müasir musiqi düşüncəsi ilə birləşdirə bilirlər.

Müasir dövrdə kamança ifaçılığı müxtəlif məktəblər və üslublar üzərində inkişaf edir. Xüsusilə Qarabağ, Şirvan və Bakı ifaçılıq ənənələri bu gün də öz təsirini saxlayır. Bu məktəblər fərqli ifa üslubları, ornamentika və improvizasiya yanaşmaları ilə seçilir. Ustad ifaçıların sənəti gənc musiqiçilər üçün əsas nümunə

rolunu oynayır. Onların ifa üslubu təkcə texniki bacarıq deyil, həm də musiqinin emosional dərinliyini çatdırmaq baxımından mühüm məktəb hesab olunur. Bu ənənə ustad-şagird münasibətləri vasitəsilə nəsildən-nəslə ötürülür və müasir dövrdə də öz aktuallığını qoruyur.

Son onilliklərdə kamança ifaçılığı ənənəvi muğam çərçivəsindən çıxaraq müxtəlif müasir musiqi janrlarına daxil olmuşdur. Xüsusilə caz, etno-caz, dünya musiqisi (world music), simfonik orkestr layihələri və film musiqisi sahəsində kamançadan geniş istifadə olunur. Bu inteqrasiya kamançanın səs imkanlarının daha geniş auditoriyaya təqdim olunmasına şərait yaradır. Müasir bəstəkarlar kamançanın emosional və mikrointonasiya imkanlarından istifadə edərək yeni musiqi formaları yaradırlar. Bu da alətin yalnız folklor elementi deyil, həm də universal musiqi vasitəsi olduğunu göstərir. Müasir dövrdə musiqi texnologiyalarının inkişafı kamança ifaçılığına da təsir göstərmişdir. Səs yazma studiyaları, rəqəmsal effektlər və musiqi proqramları ifaçıların yaradıcılıq imkanlarını genişləndirmişdir.

Bəzi ifaçılar kamançanın səsini elektron musiqi ilə sintez edərək yeni eksperimental janrlar yaradırlar. Bununla yanaşı, alətin konstruksiyasında da müəyyən təkmilləşdirmələr aparılmış, səs rezonansını artıran yeni materiallardan istifadə olunmuşdur. Bu dəyişikliklər ifa keyfiyyətini yüksəltməklə yanaşı, konsert səhnəsində daha güclü və aydın səs əldə etməyə imkan verir. Kamança ifaçılığı bu gün beynəlxalq musiqi festivallarında və mədəni layihələrdə geniş təmsil olunur. Azərbaycan musiqiçiləri müxtəlif ölkələrdə çıxış edərək kamançanı dünya musiqi ictimaiyyətinə tanıdırlar. Bu proses nəticəsində kamança artıq yalnız milli musiqi aləti kimi deyil, həm də mədəniyyətlərarası dialoqun bir vasitəsi kimi qəbul edilir. Beynəlxalq əməkdaşlıqlar

və birgə musiqi layihələri kamança ifaçılığının qlobal səviyyədə inkişafına ciddi töhfə verir.

Beləliklə, müasir dövrdə kamança ifaçılığı çoxşaxəli inkişaf yolu keçmişdir. Təhsil sisteminin güclənməsi, ifaçılıq məktəblərinin qorunması, yeni janrlara inteqrasiya və texnoloji imkanların genişlənməsi bu sənətin davamlı inkişafını təmin edir. Kamança bu gün həm milli kimliyin daşıyıcısı, həm də müasir musiqi dünyasında aktiv iştirak edən universal alət kimi çıxış edir.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 21-25
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 21-25
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Silahlı münaqişələr zamanı hədəf seçimi prosesində fərqləndirmə prinsipinin tətbiqi və hüquqi məsuliyyət məsələləri

**Emil Qasımov**

***Açar sözlər:*** *fərqləndirmə prinsipi, beynəlxalq humanitar hüquq, hədəf seçimi, hərbi hədəf, mülki əhali, hüquqi məsuliyyət, silahlı münaqişələr*
***Keywords:*** *principle of distinction, international humanitarian law, targeting process, military objective, civilians, legal responsibility, armed conflicts*

Fərqləndirmə prinsipi beynəlxalq humanitar hüququn əsasını təşkil edən fundamental prinsiplərdən biridir. Bu prinsipin əsas mahiyyəti müharibə aparılması zamanı mülki şəxslərin və mülki obyektlərin qorunmasını təmin etməkdən ibarətdir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin mövqeyinə görə fərqləndirmə prinsipi beynəlxalq adət hüququ statusuna malikdir və bütün dövlətlər üçün məcburi xarakter daşıyır. 1977-ci il I Əlavə Protokolun 48-ci maddəsində qeyd edilir ki, münaqişə tərəfləri hər zaman mülki əhali ilə kombatantları və mülki obyektlərlə hərbi hədəfləri fərqləndirməlidirlər. Bu prinsipin tətbiqi nəticəsində yalnız legitim hərbi hədəflər hücum obyekti hesab edilə bilər. Hərbi hədəf anlayışı I Əlavə Protokolun 52-ci maddəsində müəyyən edilmişdir.

Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu, Bakı, Azərbaycan
E-poçt: gasimovemil88@gmail.com

Həmin maddəyə əsasən obyekt yalnız o halda hərbi hədəf hesab edilir ki: öz təbiəti, yerləşməsi, məqsədi və ya istifadəsi ilə hərbi fəaliyyətə effektiv töhfə versin və həmin obyektin tam və ya qismən məhv edilməsi konkret hərbi üstünlük təmin etsin. Məsələn, hərbi bazalar, silah anbarları, komanda-idarəetmə məntəqələri və hərbi texnika legitim hərbi hədəf hesab edilir. Bunun əksinə olaraq, məktəblər, xəstəxanalar, yaşayış binaları və dini obyektlər mülki obyekt sayılır və hücumlardan qorunur. Bununla belə, mülki obyektlər hərbi məqsədlər üçün istifadə edilərsə, onların hüquqi statusu dəyişə bilər. Məsələn, yaşayış binasının hərbi qərargah və ya silah anbarı kimi istifadə olunması həmin obyekti legitim hərbi hədəfə çevirə bilər.

Fərqləndirmə prinsipinin hüquqi əsasları müəyyən edildikdən sonra bu prinsipin praktiki olaraq hədəf seçimi prosesində necə tətbiq olunduğunu təhlil etmək zəruridir. Müasir hərbi əməliyyatlarda hədəf seçimi prosesi mürəkkəb hüquqi və texniki mərhələlərdən ibarətdir. Bu proses zamanı komandanlıq konkret obyektin və ya şəxsin legitim hərbi hədəf olub-olmadığını müəyyən etməlidir. Hədəf seçimi prosesində fərqləndirilən əsas mərhələlərə aiddir: kəşfiyyat məlumatlarının toplanması; hədəfin identifikasiyası; hədəfin hüquqi qiymətləndirilməsi; proporsionallıq analizinin aparılması; hücum vasitəsinin seçilməsi; əməliyyat sonrası qiymətləndirmə.

Kəşfiyyat məlumatlarının düzgünlüyü fərqləndirmə prinsipinin tətbiqi baxımından xüsusi əhəmiyyət daşıyır. Müasir dövrdə pilotsuz uçuş aparatları, peyk müşahidə sistemləri, elektron kəşfiyyat vasitələri və süni intellekt texnologiyaları hədəflərin müəyyən edilməsində geniş istifadə olunur. Lakin texnoloji üstünlüklərə baxmayaraq, səhv identifikasiya riski tam aradan qalxmır. Məsələn, şəhər müharibələri zamanı silahlı qrupların yaşayış məntəqələrində yerləşməsi və mülki əhali arasında gizlənməsi fərqləndirmə prinsipinin tətbiqini çətinləşdirir. Bu,

xüsusilə Suriya, İraq və Qəzza bölgəsində baş vermiş münaqişələr zamanı müşahidə olunmuşdur. Hədəf seçimi prosesində hüquqi müşavirlərin iştirakı da mühüm rol oynayır. Bir çox dövlətlərin silahlı qüvvələrində hərbi əməliyyatların planlaşdırılması zamanı hüquqşünas zabitlər iştirak edir və planlaşdırılan hücumların beynəlxalq humanitar hüquqa uyğunluğunu qiymətləndirirlər.

Hədəfin legitimliyinin müəyyən olunması ilə yanaşı, həyata keçiriləcək hücumun proporsionallıq tələblərinə uyğunluğu da ayrıca qiymətləndirilməlidir. Fərqləndirmə prinsipi proporsionallıq prinsipi ilə sıx əlaqəlidir. Proporsionallıq prinsipinə görə hücum nəticəsində gözlənilən mülki itkilər əldə olunacaq konkret və birbaşa hərbi üstünlüklə müqayisədə həddindən artıq olmamalıdır. Məsələn, kiçik hərbi üstünlük üçün geniş yaşayış məhəlləsinin bombalanması beynəlxalq humanitar hüququn pozulması hesab edilə bilər. Bu baxımdan hərbi komandanlıq hücum qərarı qəbul edərkən mülki itkilərin minimuma endirilməsi üçün alternativ variantları da nəzərdən keçirməlidir. I Əlavə Protokolun 57-ci maddəsində hücum zamanı ehtiyat tədbirləri nəzərdə tutulmuşdur. Bu tədbirlərə daxildir: mülki şəxslərə əvvəlcədən xəbərdarlıq edilməsi; dəqiq silahlardan istifadə; hücum vaxtının dəyişdirilməsi; alternativ hərbi vasitələrin seçilməsi; mülki itkilərin minimuma endirilməsi. Müasir dövrdə yüksək dəqiqlikli silahların tətbiqi fərqləndirmə prinsipinin daha effektiv həyata keçirilməsinə imkan yaratsa da, mülki itkilərin tam qarşısını almaq mümkün olmur.

Bununla yanaşı, müasir silahlı münaqişələrin xarakteri fərqləndirmə prinsipinin tətbiqində bir sıra praktiki və hüquqi çətinliklər yaratmışdır. Şəhər müharibələri mülki və hərbi obyektlərin bir-birinə yaxın yerləşməsi səbəbindən fərqləndirmə prinsipinin tətbiqini çətinləşdirir. Məsələn, silahlı qrupların

yaşayış binalarında yerləşməsi və ya məktəb və xəstəxanalardan istifadə etməsi hərbi əməliyyatların hüquqi qiymətləndirilməsini mürəkkəbləşdirir. Qeyri-dövlət silahlı qrupları əksər hallarda mülki geyimdən istifadə edir və mülki əhali arasında fəaliyyət göstərirlər. Bu isə kombatantların müəyyən edilməsini çətinləşdirir. Pilotsuz uçuş aparatları və avtonom silah sistemləri müasir müharibələrin əsas elementlərindən birinə çevrilmişdir. Bu texnologiyalar dəqiq zərbələrin endirilməsinə imkan versə də, hüquqi və etik problemlər də yaradır. Xüsusilə süni intellekt sistemlərinin insan davranışını düzgün qiymətləndirə bilməməsi mülki şəxslərin səhvən hədəfə alınmasına səbəb ola bilər.

Fərqləndirmə prinsipinin və beynəlxalq humanitar hüquq normalarının pozulması isə hüquqi məsuliyyət məsələsini gündəmə gətirir. Fərqləndirmə prinsipinin pozulması beynəlxalq hüquqi məsuliyyət yaradır. Bu məsuliyyət həm dövlətlərin beynəlxalq məsuliyyəti, həm də fərdi cinayət məsuliyyəti formasında meydana çıxa bilər. Dövlət beynəlxalq humanitar hüquq normalarını pozduğu halda beynəlxalq məsuliyyət daşıyır. Belə hallarda: hüquqazidd əməl dayandırılmalı; dəymiş zərər kompensasiya edilməli; təkrar pozuntuların qarşısı alınmalıdır. BMT Nizamnaməsi və Beynəlxalq Ədalət Məhkəməsinin praktikası dövlət məsuliyyətinin hüquqi əsaslarını formalaşdırır. Fərqləndirmə prinsipinin kobud şəkildə pozulması müharibə cinayəti hesab edilə bilər. Roma Statutuna əsasən mülki əhaliyə və ya mülki obyektlərə qəsdən hücum etmək müharibə cinayətidir. Beynəlxalq Cinayət Məhkəməsi və keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Tribunalın praktikasında fərqləndirmə prinsipinin pozulmasına dair çoxsaylı işlər mövcuddur. Xüsusilə mülki əhalinin məqsədli şəkildə bombalanması və qeyri-selektiv hücumlar beynəlxalq cinayət məsuliyyətinə səbəb olmuşdur. Komanda məsuliyyəti prinsipi də mühüm əhəmiyyət daşıyır. Bu prinsipə əsasən hərbi komandan tabeliyində olan şəxslərin

törətdiyi beynəlxalq cinayətlərin qarşısını almadıqda və ya həmin cinayətləri cəzalandırmadıqda məsuliyyət daşıya bilər.

Nəticə etibarilə fərqləndirmə prinsipi beynəlxalq humanitar hüququn əsas prinsiplərindən biri olmaqla silahlı münaqişələr zamanı mülki şəxslərin və mülki obyektlərin qorunmasına xidmət edir. Müasir müharibə şəraitində hədəf seçimi prosesinin mürəkkəbləşməsi bu prinsipin tətbiqinə xüsusi diqqət yetirilməsini tələb edir. Fərqləndirmə prinsipinin pozulması həm dövlətlərin beynəlxalq məsuliyyətinə, həm də fərdlərin beynəlxalq cinayət məsuliyyətinə səbəb ola bilər. Bu baxımdan dövlətlərin beynəlxalq humanitar hüquq normalarına riayət etməsi, hərbi qulluqçuların hüquqi hazırlığının artırılması və effektiv nəzarət mexanizmlərinin tətbiqi xüsusi əhəmiyyət daşıyır. Beləliklə, fərqləndirmə prinsipi yalnız hüquqi norma deyil, həm də müharibələrin humanitar nəticələrinin minimuma endirilməsi üçün vacib vasitədir. Bu prinsipə əməl olunması beynəlxalq hüququn aliliyinin təmin edilməsində və insan həyatının qorunmasında mühüm rol oynayır.

https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Rəqəmsal texnologiyalar əsasında kimya tədrisinin modernləşdirilməsi

**Maya Quliyeva[1*], İlhamə Səfərova[2]**

***Açar sözlər:*** *rəqəmsal alət, virtual laboratoriya, virtual reallıq, süni intellekt əsaslı platformalar, simulyasiya*
***Keywords****: digital tools, virtual laboratory, virtual reality (VR), artificial intelligence-based platforms, simulation*

XXI əsrdə təhsil sahəsi sürətlə dəyişir və bu dəyişikliklərin önündə rəqəmsal texnologiyalar dayanır. Xüsusilə kimya fənni üçün bu dəyişikliklərin əhəmiyyəti böyükdür. Kimya abstrakt anlayışları və praktiki bacarıqları birləşdirən bir elm sahəsi olduğu üçün, ənənəvi dərs üsulları — kitablar, lövhə izahları və laboratoriyaların məhdud imkanları — tələbələrin konseptləri tam dərk etməsinə yetmir. Atomlar, molekullar və reaksiyaların mərhələləri gözlə görülmədiyi üçün öyrənmə prosesi çətinləşir. Rəqəmsal texnologiyalar bu boşluğu doldurur. Onlar dərsi daha interaktiv edir, tələbələrə vizual və praktik təcrübə təqdim edir, eyni zamanda, öyrənmə prosesini təhlükəsiz və resurs baxımından qənaətcil hala gətirir.

[1] Bakı Dövlət Universiteti, doktorant, Bakı, Azərbaycan
[2] Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
[*] Məsul müəllif. E-poçt: guliyevamaia@gmail.com

*Rəqəmsal alətlər və onların rolu. Virtual laboratoriyalar* tələbələrə kompüter üzərində real laboratoriya təcrübəsini yaşamağa imkan verir. Bu mühitdə kimyəvi reaksiyalar təhlükəsiz şəkildə icra olunur və nəticələr dərhal analiz edilə bilir. Belə laboratoriyalar yanğın, partlayış və zəhərlənmə kimi riskləri aradan qaldırır və tələbələrin dərsə qarşı qorxusunu azaldır. Eyni zamanda, virtual təcrübələr istənilən sayda təkrar oluna bilir, tələbə nəticələri fərdi olaraq analiz edə bilir və laboratoriya avadanlıqlarına qənaət olunur. *Simulyasiya* proqramları molekulların hərəkətini, kimyəvi reaksiyaların mərhələlərini və enerji dəyişikliklərini vizual şəkildə göstərir. Bu, tələbələrin abstrakt anlayışları daha asan mənimsəməsinə kömək edir. Simulyasiyalar vasitəsilə tələbələr müxtəlif hipotezləri sınaya, nəticələri müqayisə edə və tədqiqatçı kimi düşünmə bacarıqlarını inkişaf etdirə bilirlər. Molekulların üçölçülü modelləri də dərsləri başa düşməni asanlaşdırır. Tələbələr atomların yerləşməsini, kimyəvi rabitələri və molekulların formasını interaktiv şəkildə görə bilirlər. Bu, xüsusilə üzvi kimya və biokimya dərslərində tələb olunan vizual təhlili dəstəkləyir.

*Virtual reallıq (VR)* tələbəyə laboratoriyada imiş kimi hiss verir. Bu texnologiya ilə tələbə reaksiyaları birbaşa görür və maddələrlə interaktiv işləyir. *Artırılmış reallıq (AR)* isə real mühit üzərinə əlavə vizual məlumat qatlayır və dərsi daha cəlbedici edir. Bu yanaşma mürəkkəb kimya anlayışlarını başa düşməyi asanlaşdırır və tələbənin dərsə marağını artırır. *Süni intellekt əsaslı platformalar* tələbənin öyrənmə prosesini izləyir, səhvləri müəyyən edir və fərdi tapşırıqlar təklif edir. Belə sistemlər tələbənin güclü və zəif tərəflərini müəyyən edərək ona öz öyrənmə planını qurmaqda kömək edir. Bu yanaşma tələbəyə sanki fərdi müəllim tərəfindən dəstək verilən bir mühit yaradır. Rəqəmsal texnologiyalar kimya dərsini yalnız alətlərlə zənginləşdirmir, həm də öyrənmə prosesinin strukturunu

dəyişdirir. Müəllim sadəcə izah edici olmur, tələbələrə rəhbərlik edən mentor rolunu oynayır. Tələbələr isə aktiv iştirakçıya çevrilir, öz təcrübələrini yoxlayır və kəşf edir. Bu yanaşma tələbələrin analitik düşüncə və problem həll etmə qabiliyyətlərini inkişaf etdirir. Qarışıq təhsil modeli — onlayn simulyasiyalar, virtual laboratoriyalar və real laboratoriya təcrübələrinin birlikdə istifadəsi — tələbələrin həm nəzəri, həm də praktiki biliklərini inkişaf etdirir. Rəqəmsal texnologiyalar kimya dərsini daha başa düşülən, təhlükəsiz və maraqlı edir. Onların bəzi əsas üstünlükləri:

- Abstrakt anlayışları vizual şəkildə göstərir və qavramanı gücləndirir.
- Dərsə marağı və motivasiyanı artırır.
- Təhlükəsizliyi təmin edir və riskləri azaldır.
- Resurslara qənaət edir.
- Tələbəyə fərdi öyrənmə imkanı yaradır.

Gələcəkdə VR laboratoriyaların geniş yayılması, süni intellekt əsaslı tədris sistemlərinin təkmilləşməsi, metaverse mühitində interaktiv dərslərin tətbiqi və real vaxt molekulyar simulyasiyaların istifadəsi gözlənilir. Rəqəmsal texnologiyaların bəzi çətinlikləri də var. Virtual laboratoriyalar real laboratoriyanı tam əvəz etmir, bəzi hallarda texniki avadanlıq və internet problemi ortaya çıxır, bəzi tələbələr isə yüksək texnologiyaya alışmaqda çətinlik çəkir. Bu problemləri minimuma endirmək üçün ən yaxşı yanaşma rəqəmsal və real laboratoriya metodlarının birlikdə tətbiqidir. Rəqəmsal texnologiyalar əsasında kimya tədrisi müasir təhsil tələblərinə cavab verən, interaktiv, təhlükəsiz və effektiv bir mühit yaradır. Bu yanaşma tələbələrin nəzəri biliklərini artırmaqla yanaşı, praktik bacarıqlarını da inkişaf etdirir və yaradıcı düşüncə qabiliyyətini gücləndirir. Ən yaxşı nəticə üçün isə rəqəmsal və real laboratoriya metodlarının birlikdə tətbiqi tövsiyə olunur.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 29-33
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 29-33
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Qida istehsalı müəssisələrində risk əsaslı inteqrasiya olunmuş idarəetmə sistemlərinin optimallaşdırılması

**Ləman Əmrahlı**

***Açar sözlər:*** *qida təhlükəsizliyi, risk əsaslı idarəetmə, ISO 9001:2015, ISO 22000:2018, inteqrasiya olunmuş sistemlər, təhlükələrin müəyyənləşdirilməsi, rəqəmsal monitorinq*
***Keywords:*** *food safety, risk-based management, ISO 9001:2015, ISO 22000:2018, integrated management systems, hazard identification, digital monitoring*

Müasir qida sənayesində istehsal proseslərinin mürəkkəbləşməsi, təchizat zəncirinin qlobal xarakter alması və istehlakçıların təhlükəsiz məhsullara olan tələbatının artması müəssisələrdə keyfiyyət və qida təhlükəsizliyi sistemlərinin daha çevik və inteqrativ şəkildə idarə olunmasını zəruri etmişdir. Xüsusilə ISO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemi və ISO 22000:2018 Qida Təhlükəsizliyi İdarəetmə Sistemi standartlarında risk əsaslı düşüncənin əsas prinsip kimi qəbul olunması müəssisələrin yalnız mövcud problemləri aradan qaldırmasına deyil, həm də potensial təhlükələri əvvəlcədən müəyyən edərək qarşısını almasına imkan yaradır. Bu yanaşma qida istehsalında davamlı keyfiyyətin təmin edilməsində, istehlakçı sağlamlığının qorunmasında və təşkilati dayanıqlığın gücləndirilməsində mühüm rol oynayır.

Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: lyaman.emrahli@gmail.com

Bu tədqiqatın əsas məqsədi qida istehsalı müəssisələrində risklərin idarə olunmasının optimallaşdırılması məqsədilə ISO 9001 və ISO 22000 standartlarının inteqrasiyasına əsaslanan idarəetmə modelinin təhlil olunması və praktik tətbiq imkanlarının araşdırılmasıdır. Araşdırmada həm beynəlxalq standartların tələbləri, həm də qida sənayesində risk idarəçiliyinə dair müasir elmi yanaşmalar müqayisəli şəkildə qiymətləndirilmişdir. Araşdırmalar göstərir ki, qida sənayesində təhlükələr yalnız məhsulun mikrobioloji və ya kimyəvi çirklənməsi ilə məhdudlaşmır. Risklər istehsal prosesinin bütün mərhələlərində - xammalın qəbulundan məhsulun istehlakçıya çatdırılmasına qədər olan zəncirdə formalaşır. Qida istehsalı sistemlərində risklərin effektiv idarə olunması təhlükələrin erkən mərhələdə müəyyənləşdirilməsi və sistemli şəkildə qiymətləndirilməsi ilə birbaşa bağlıdır. Bu risklər bioloji, kimyəvi, fiziki, allergen, əməliyyat və ekoloji faktorlar daxil olmaqla çoxölçülü xarakter daşıyır və həm istehsal proseslərinin dayanıqlılığına, həm də istehlakçı təhlükəsizliyinə təsir göstərir. Tədqiqatda xüsusilə insan amili, avadanlıq nasazlıqları, gigiyenik uyğunsuzluqlar və proses idarəetməsindəki çatışmazlıqların həm məhsul təhlükəsizliyinə, həm də işçi sağlamlığına ciddi təsir göstərdiyi qeyd edilir.

Risk əsaslı idarəetmə yanaşmasının üstünlüklərindən biri müəssisələrdə proaktiv idarəetmə mexanizminin formalaşdırılmasıdır. Ənənəvi idarəetmə sistemlərində problemlər baş verdikdən sonra korrektiv tədbirlər görülürdüsə, risk əsaslı sistemlərdə əsas diqqət potensial uyğunsuzluqların əvvəlcədən müəyyən olunmasına yönəlir. ISO 9001:2015 standartında risk əsaslı düşüncə təşkilati proseslərin sabitliyini və davamlı təkmilləşdirilməsini təmin edən əsas mexanizm kimi təqdim olunur. ISO 22000:2018 isə qida təhlükəsizliyi risklərinin idarə olunmasını HACCP prinsipləri ilə inteqrasiya edərək təhlükələrin nəzarət altında saxlanılmasını tələb edir.

Tədqiqat çərçivəsində qida müəssisələri üçün inteqrasiya olunmuş dörd mərhələli risk idarəetmə modeli təklif olunur. Birinci mərhələdə müəssisənin bütün fəaliyyət sahələri üzrə təhlükələr müəyyən edilir və risk xəritələri hazırlanır. Burada xammalın keyfiyyəti, sanitariya vəziyyəti, personal davranışları, texniki avadanlıqların vəziyyəti və istehsal mühiti ayrı-ayrılıqda qiymətləndirilir. Aparılmış araşdırmada xüsusilə süd məhsulları istehsalında tanker boşaldılması, qablaşdırma, laboratoriya nəzarəti, tullantıların idarə olunması və istehsal proseslərində meydana çıxan risklər ətraflı şəkildə təhlil edilmişdir.

İkinci mərhələdə müəyyən edilmiş risklər müəssisənin strateji məqsədləri ilə əlaqələndirilir və prioritetləşdirilir. Risklərin qiymətləndirilməsi zamanı onların başvermə ehtimalı və təsir səviyyəsi əsas meyar kimi qəbul edilir. Araşdırmada risklərin qiymətləndirilməsi üçün 1-dən 5-ə qədər şkaladan istifadə olunmuş, nəticələrə uyğun olaraq “aşağı”, “orta”, “yüksək” və “əhəmiyyətli” risk kateqoriyaları müəyyən edilmişdir. Bu metod müəssisələrə resurslarını daha kritik təhlükələrə yönəltməyə imkan verir.

Üçüncü mərhələdə ISO 9001 və ISO 22000 standartlarının tələblərinə uyğun vahid idarəetmə mexanizmi yaradılır. Bu inteqrasiya sənədləşmə sisteminin sadələşdirilməsinə, audit prosedurlarının uyğunlaşdırılmasına və idarəetmə proseslərinin koordinasiyasına şərait yaradır. Tədqiqatda qeyd olunur ki, inteqrasiya olunmuş idarəetmə sistemi müəssisələrdə qərarvermə sürətini artırır, kommunikasiya boşluqlarını azaldır və proseslərarası uyğunluğu gücləndirir. Bununla yanaşı, risk göstəricilərinin vahid sistem üzərindən izlənilməsi nəzarət tədbirlərinin effektivliyini yüksəldir.

Dördüncü mərhələ fasiləsiz monitorinq və davamlı təkmilləşdirmə prinsiplərinə əsaslanır. Müasir qida sənayesində

rəqəmsal monitorinq sistemlərinin tətbiqi risklərin real vaxt rejimində izlənilməsinə imkan yaradır. Sensor əsaslı nəzarət sistemləri, SCADA texnologiyaları, avtomatlaşdırılmış hesabat mexanizmləri və analitik proqram təminatları istehsal prosesində baş verən dəyişikliklərin operativ şəkildə aşkarlanmasını təmin edir. Araşdırmada qeyd olunur ki, xüsusilə temperatur nəzarəti, allergen monitorinqi, gigiyena göstəriciləri və avadanlıq performansının rəqəmsal izlənilməsi təhlükələrin minimuma endirilməsində mühüm rol oynayır.

Tədqiqat nəticələri göstərir ki, qida sənayesində ən yüksək risk göstəriciləri bioloji, allergen və əməliyyat riskləri üzrə müşahidə olunur. Süd məhsullarının emalı zamanı filtrasiya sistemlərinin qeyri-kafi işləməsi, insan saçının və həşəratların məhsula düşməsi, düzgün saxlanmayan kimyəvi maddələr və elektrik təhlükələri istehsal prosesində əhəmiyyətli risk faktorları kimi qiymətləndirilmişdir. Bununla yanaşı, tullantıların düzgün idarə olunmaması ekoloji risklərin artmasına səbəb olur. Araşdırmada risklərin azaldılması üçün FIFO sisteminin tətbiqi, avadanlıqların müntəzəm texniki baxışı, personal təlimlərinin gücləndirilməsi və filtrasiya sistemlərinin daimi nəzarətdə saxlanılması tövsiyə edilmişdir.

Müəssisələrdə effektiv risk idarəçiliyinin təmin olunması yalnız texniki nəzarət vasitələri ilə məhdudlaşmır. Təhlükəsizlik mədəniyyətinin formalaşdırılması, işçilərin risklər barədə maarifləndirilməsi və rəhbərliyin proseslərə aktiv şəkildə cəlb olunması da mühüm amillər sırasındadır. Tədqiqat müəllifləri qeyd edirlər ki, təhlükəsizlik üzrə davamlı təlimlər, işçi davranışlarının monitorinqi və ergonomik iş mühitinin yaradılması əməliyyat risklərinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olur.

Nəticə etibarilə, ISO 9001:2015 və ISO 22000:2018 standartlarının inteqrasiyasına əsaslanan risk idarəetmə modeli qida istehsalı müəssisələrində keyfiyyət və təhlükəsizlik göstəricilərinin yüksəldilməsinə mühüm töhfə verir. Risklərin sistemli şəkildə müəyyənləşdirilməsi, prioritetləşdirilməsi və davamlı monitorinqi müəssisələrin yalnız normativ tələblərə uyğun fəaliyyət göstərməsinə deyil, həm də rəqabət qabiliyyətinin gücləndirilməsinə şərait yaradır. İnnovativ rəqəmsal monitorinq texnologiyalarının tətbiqi isə gələcəkdə qida sənayesində daha çevik, təhlükəsiz və dayanıqlı idarəetmə sistemlərinin formalaşmasına imkan yaradacaqdır.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 34-39
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 34-39
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Haşım bəy Nərimanbəyovun İrəvan maarif mühitindəki rolu

**Nuranə Teymurlu**

***Açar sözlər:*** *İrəvan maarifçiliyi, Haşım bəy Nərimanbəyov, Azərbaycanda qadın təhsili, rus-tatar məktəbləri, üsuli-cədid məktəbləri*
***Keywords:*** *Irevan enlightenment, Hashim bey Narimanbeyov, education of women in Azerbaijan, Russian-Tatar schools, new method schools*

Haşım bəy Nərimanbəyov XIX əsrin sonu XX əsrin əvvəllərində İrəvan maarif mühitində fəaliyyət göstərmiş ən mühüm azərbaycanlı maarifçi-pedaqoqlardan biridir. Onun pedaqoji fəaliyyəti İrəvan rus-tatar oğlan və qız məktəblərinin formalaşması, üsuli-cədid pedaqoji prinsiplərinin yerli reallığa tətbiqi, müsəlman uşaqlarının dünyəvi təhsilə cəlb edilməsi və yeni azərbaycanlı ziyalı nəslinin yetişdirilməsi sahəsində özünəməxsus iz qoymuşdur. Qeyd etmək lazımdır ki, Haşım bəy Nərimanbəyovun yazılı pedaqoji-nəzəri əsərləri haqqında mənbələrdə bilavasitə məlumat yoxdur. Onun pedaqoji görüşləri əsasən əməli fəaliyyəti, fəaliyyət göstərdiyi məktəblərin pedaqoji yönəlimi, dövrünün xatirələri və "Kavkazskiy kalendar" məcmuəsinin statistik məlumatları əsasında bərpa olunur.

---

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt:teymurlunurane@gmail.com

Haşım bəy Nərimanbəyovun pedaqoji fəaliyyətinin əsas mərhələləri "Kavkazskiy kalendar" məcmuəsinin müxtəlif illərə aid buraxılışlarındakı statistik məlumatlar əsasında ardıcıllıqla izlənə bilər. Bu məlumatlar onun XX əsrin əvvəllərində İrəvan rus-tatar məktəbinin müxtəlif inzibati və tədris vəzifələrində ardıcıl şəkildə çalışdığını sübut edir. Belə ki, "Kavkazskiy kalendar" məcmuəsinin 1906-1907-ci illərə aid məlumatlarına görə, İrəvan rus-tatar məktəbinin 1906-1907-ci tədris ilində Haşım bəy Nərimanbəyov nəzarətçi vəzifəsində çalışmışdır. Eyni dövrdə məktəbdə Həmid bəy Şahtaxtinski və Rəcəbov müəllim, Axund Abdulla bəy Qazıyev şəriət müəllimi, Məmməd Vəli Qəmərlinski isə Azərbaycan dili müəllimi olaraq fəaliyyət göstərirdilər. Bu kompozisiya göstərir ki, Haşım bəy adı çəkilən nəzarətçi vəzifəsində müəllim-pedaqoq kollektivinin idarə olunması, məktəbin tədris prosesinin koordinasiyası və pedaqoji nizam-intizamın təmin edilməsi məsuliyyətini daşıyırdı. "Kavkazskiy kalendar" məcmuəsinin 1909-cu il buraxılışında isə Haşım bəy Nərimanbəyov bilavasitə İrəvan rus-tatar məktəbinin müəllimi kimi qeyd olunmuşdur. Bu fakt onun pedaqoji fəaliyyətinin inzibati və tədris istiqamətlərini paralel surətdə davam etdirdiyini göstərir.

Beləliklə, Haşım bəyin pedaqoji fəaliyyətinin sənədli olaraq izlənilə bilən mərhələləri belə şəkillənir:

- 1902-ci ildən əvvəl: pedaqoji fəaliyyətə başlama dövrü;
- 1906-1907: İrəvan rus-tatar məktəbində nəzarətçi;
- 1909-cu ildən etibarən: müəllim kimi fəaliyyət;
- sonrakı dövrlər: İrəvan azərbaycanlı qızlar məktəbinin müdiri vəzifəsində fəaliyyət.

"İrəvan ensiklopedik foto-toplusu"nda 1940-cı ilə aid foto-şəkildə "Haşım bəy məktəbinin şagirdləri müəllimləri ilə birlikdə, İrəvan, 1940-cı il" ifadəsi, eləcə də 1944-cü ilə aid Məmməd Fərəcovun şagirdlərlə birlikdə şəkli göstərir ki,

məktəb onun adı ilə bağlı qalmış və hətta sovet dövrünün sonrakı onilliklərində də "Haşım bəy məktəbi" olaraq adlandırılmaqda davam etmişdir. Bu, onun yerli ictimai-pedaqoji nüfuzunun nə qədər güclü olduğunu göstərir. Haşım bəy Nərimanbəyovun pedaqoji yanaşmasının başlıca xüsusiyyətləri onun fəaliyyət göstərdiyi məktəbin tədris proqramı, müəllim heyətinin tərkibi və pedaqoji prioritetləri əsasında dolayı yolla bərpa edilə bilər. İrəvan rus-tatar məktəbinin tədris proqramı dövrün üsuli-cədid (yeni üsul) prinsiplərinə uyğun qurulmuşdu: ana dili A. Çernyayevskinin "Vətən dili" dərsliyi əsasında səs üsulu ilə, fars dili Sədi Şirazinin "Gülüstan"ı, rus dili M. Volperin "Rus dili" dərsliyi, hesab Yevtuşevskinin "Məsələlər kitabı", şəriət isə Firudin bəy Köçərlinin tərtib etdiyi dərslik üzrə tədris edilirdi. Bu proqram dünyəvi və dini elmlərin müdrik balanslaşdırılmasını ifadə edirdi. Haşım bəyin nəzarətçi və müəllim kimi bu proqramın həyata keçirilməsində bilavasitə iştirakı onun tədris-metodoloji yanaşmasında müasir Avropa pedaqogikası ilə şərq klassik təlim ənənəsinin sintezini dəstəklədiyini göstərir.

İrəvan rus-tatar məktəbinin formalaşması prosesində Haşım bəy Nərimanbəyov İsmayıl bəy Şəfibəyov, Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərlinski, Axund Molla Məhəmmədbağır Qazızadə kimi bir maarifçi-pedaqoqlarla çiyin-çiyinə çalışmışdır. Haşım bəyin pedaqoji fəaliyyəti yalnız təhsil müəssisəsi divarları ilə məhdudlaşmırdı; o, geniş ictimai məsuliyyət hissi ilə xalqın maarifləndirilməsi missiyasını da öz üzərinə götürmüşdü, həmçinin, o, kollektiv-əməkdaşlıq prinsipinə sadiq idi, pedaqoji fəaliyyətini fərdi qəhrəmanlıq deyil, kollektiv səy nəticəsi kimi qavrayırdı.

Bu dövrdə yeni-tipli məktəblərin açılması heç də asan həyata keçməmişdir; Əliqulu xan İrəvanski, Pənah xan Makinski, Məhəmməd Şahtaxtinski, Fazil İrəvani, Haşımbəy

Nərimanbəyov, Firudin Köçərli, Cəlil Məmmədquluzadə, Bala Əfəndiyev və başqa maarifçilərin gərgin əməyi nəticəsində ilk məktəblər yaradılmış, minlərlə qız və oğlan savad almışdır. Bu proseslər zamanı erməni şovinist qüvvələri də dinc qalmış, Azərbaycan məktəblərinin açılmasına müxtəlif yollarla mane olmağa çalışırdılar; bu cür təzyiqlərə baxmayaraq Haşım bəy və onun məsləkdaşları öz pedaqoji missiyasını davam etdirmiş, milli təhsil ocaqlarının möhkəmlənməsinə nail olmuşlar.

Haşım bəy Nərimanbəyovun pedaqoji fəaliyyətinin xüsusilə diqqətəlayiq tərəfi onun İrəvanda azərbaycanlı qızlar üçün açılmış məktəbin müdiri kimi fəaliyyət göstərməsidir. İrəvanda "Azərbaycan" qız məktəbinin açılması tarixə iz qoyan bir hadisə idi. Bu məktəb Haşım bəyin səyləri nəticəsində əhalinin rəğbətini qazanmışdı. Məktəbin müəllimləri siyahısında isə İrəvan gimnaziyasının müəllimlərindən İsmayıl bəy Şəfibəyov, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili müəllimi Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərlinski və Axund Məmmədbağır Qazızadənin adlarını çəkə bilərik. Bu məktəbin uğurlu fəaliyyəti dövrün ən mühüm pedaqoji nailiyyətlərindən biri sayılır.

XIX əsrin sonu-XX əsrin əvvəllərində müsəlman cəmiyyətində qızların məktəbə cəlb edilməsinə qarşı mövcud olan mühafizəkar müqaviməti aradan qaldırmaq xüsusi pedaqoji məharət tələb edirdi. Haşım bəy Nərimanbəyovun rəhbərliyi altında qızlar məktəbinin uğurlu fəaliyyəti və əhalinin rəğbətini qazanması göstərir ki, məktəb əxlaq tərbiyəsi məsələlərində dini və dünyəvi normaların müdrik balanslaşdırılmasını həyata keçirə bilmişdir. Məktəbdə şəriət müəllimi kimi mənəvi nüfuza malik Axund Məmmədbağır Qazızadənin və şəriət müəllimi kimi tanınmış Mirzə Məmmədvəli Qəmərlinskinin fəaliyyət göstərməsi bu balansın necə qurulmasının açarını verir. Bu dövrdə Haşım bəy müsəlman ailələrinin etibarını dini-əxlaqi

standartlara hörmət göstərmək və eyni zamanda dünyəvi elmləri tədris etmək vasitəsi ilə qazanmışdı.

Haşım bəyin müdir kimi həyata keçirdiyi pedaqoji konsepsiyanın üç əsas prinsipi var idi; birincisi, qızların təhsil almağının onların əxlaqi keyfiyyətlərinin pisləşməsinə deyil, əksinə, yaxşılaşmasına gətirib çıxardığını praktik nəticələrlə sübut etmək; ikincisi, məktəbdə intizamlı, ciddi mühit yaratmaqla mühafizəkar dairələrin şübhələrini aradan qaldırmaq; üçüncüsü, qızlara həm milli mədəniyyət dəyərlərini, həm də müasir vətəndaş əxlaqını paralel olaraq aşılamaq. Bu məktəbi bitirən qızlar yalnız savadlı evdar qadın deyil, müəllim, ictimai fəal və mədəni xadim kimi yetişirdilər. Bu cəhət İrəvan maarifçi-pedaqoji məktəbinin əsas məqsədinin sadəcə savadlı qadın deyil, ictimai-iqtisadi həyatda fəal iştirak edə biləcək "yeni qadın" tipi yetişdirmək olduğunu göstərir.

Haşım bəy Nərimanbəyovun pedaqoji fəaliyyətinin uzunmüddətli təsirinin ən parlaq əyani sübutu onun adı ilə anılan məktəbin sovet dövründə də fəaliyyətini davam etdirməsidir. "İrəvan ensiklopedik foto-toplusu"ndakı 1940-cı və 1944-cü illərə aid fotolar göstərir ki, "Haşım bəy məktəbi" XX əsrin ortalarına qədər İrəvan azərbaycanlı təhsil mühitinin ən nüfuzlu təhsil ocaqlarından biri olaraq qalmışdır.

Eyni zamanda, Haşım bəyin rəhbərliyi altında və ya onun məktəbinin pedaqoji ənənəsi çərçivəsində yetişən qadın və kişi şagirdlər sonradan həm "Ermənistan"da, həm də Azərbaycan SSR-də pedaqoji və mədəni fəaliyyət sahələrində özlərini göstərmişlər. Hətta İrəvan Gimnaziyasını və qızlar məktəblərini bitirən azərbaycanlı qızların bir hissəsi sonradan İrəvan və Azərbaycanın digər şəhərlərində təhsil və məktəb sahəsində çalışmış, böyük uğurlara imza atmışlardır. Bu fakt Haşım bəyin pedaqoji proqramının praktik səmərəsini sübut edir: o, sadəcə

savadlı qadınlar deyil, müəllim və ictimai fəal qadınlar yetişdirirdi. Haşım bəyin müasir Azərbaycan pedaqogika tarixində tutduğu yer onun maarifçi pedaqoq, qız təhsilinin pionerlərindən biri və institusional qurucu kimi qoyduğu xidmətlərlə müəyyən edilir. Onun fəaliyyət xətti, rus-tatar oğlan və qız məktəblərində müəllim və nəzarətçidən başlayaraq qızlar məktəbinin müdirliyinə qədər, XX əsrin əvvəllərində İrəvanda müsəlman uşaqlarının dünyəvi təhsilə cəlb edilməsinin və qadın təhsilinin formalaşdırılmasının institusional əsasının yaradılması prosesini əks etdirir. Onun məsləkdaşları olan Mirzə Məmmədvəli Qəmərlinski, İsmayıl bəy Şəfibəyov, Rəhim Xəlilov, Axund Məmmədbağır Qazızadə kimi pedaqoqlarla birgə fəaliyyəti İrəvan maarifçi-pedaqoji məktəbinin kollektiv əməyi nəticəsi kimi formalaşmasına gətirib çıxarmışdır. Haşım bəy Nərimanbəyov İrəvan maarif mühitinin ən mühüm aparıcı maarifçi-pedaqoqlarından biri olaraq Azərbaycan təhsil tarixində özünəməxsus və qiymətli iz qoymuşdur. Tədqiqatın əsas məhdudiyyəti Haşım bəy Nərimanbəyovun yazılı pedaqoji-nəzəri əsərləri və ya şəxsi sənədlərinin mövcud mənbələrdə qorunmaması və ya hələ aşkar olunmamasıdır. Onun dəqiq doğum və vəfat tarixləri, ailə vəziyyəti, ali təhsili haqqında məlumatlar da indiki mənbə bazasında məhdud şəkildə təqdim edilir.

Beləliklə, Haşım bəy Nərimanbəyov İrəvan maarifçi-pedaqoji ənənəsində Mirzə Ələkbər Elxanov, Mirzə Məmmədvəli Qəmərlinski, Məmməd bəy Qazıyev kimi maarifçilərlə bir cərgədə dayanan, lakin öz spesifik fəaliyyət sahəsi ilə fərqlənən simadır. Onun pedaqoji irsi hələ də sistemli şəkildə tədqiq edilməmiş və müasir Azərbaycan pedaqogika tarixində layiqincə qiymətləndirilməmiş səhifələrdəndir. Bu istiqamətdə aparılacaq gələcək tədqiqatlar Azərbaycan qadın təhsil tarixinin və İrəvan maarifçi ənənəsinin daha dolğun bərpası üçün vacib töhfə verəcəkdir.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 40-44
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 40-44
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Bank idarəetməsində daxili auditin strateji transformasiyası: Azərbaycan Beynəlxalq Bankı timsalında yeni yanaşmalar

**Nigar Aşumova**

***Açar sözlər:*** *daxili audit, bank sektoru, kredit riskləri, rəqəmsallaşma, risklərin idarə edilməsi*
***Keywords:*** *internal audit, banking sector, credit risks, digitalization, risk management*

Qloballaşan maliyyə sistemində bank sektorunun davamlılığı yalnız kapital adekvatlığı və likvidlik göstəriciləri ilə deyil, eyni zamanda effektiv korporativ idarəetmə və nəzarət mexanizmlərinin mövcudluğu ilə müəyyən olunur. Müasir şəraitdə bank fəaliyyətinin mürəkkəbləşməsi, maliyyə alətlərinin şaxələnməsi və texnoloji innovasiyaların sürətlə tətbiqi idarəetmə sistemində keyfiyyətcə yeni yanaşmaların formalaşdırılmasını zəruri edir. Bu transformasiya prosesində daxili audit funksiyası xüsusi əhəmiyyət kəsb edir. Ənənəvi olaraq daxili audit nəzarət və yoxlama funksiyası kimi qəbul edilsə də, müasir yanaşmalar bu institutu strateji idarəetmənin aktiv komponenti kimi qiymətləndirir. Artıq daxili audit yalnız baş vermiş hadisələrin təhlili ilə məhdudlaşmır, o, risklərin qabaqlayıcı qiymətləndirilməsi, idarəetmə qərarlarının optimallaşdırılması və təşkilati effektivliyin artırılması istiqamətində mühüm rol oynayır.

Bakı Biznes Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: ashumovanigar943@gmail.com

Azərbaycan Beynəlxalq Bankı ASC ölkənin bank sistemində aparıcı mövqeyə malik olmaqla yanaşı, son illərdə institusional islahatlar və idarəetmə modernizasiyası istiqamətində diqqətəlayiq addımlar atmışdır. Bu baxımdan, bankın daxili audit sisteminin strateji transformasiyası məsələsinin tədqiqi həm nəzəri yanaşmaların inkişafı, həm də praktik tətbiqlərin qiymətləndirilməsi baxımından aktuallıq kəsb edir.

*Daxili auditin nəzəri əsasları və bank idarəetməsində funksional rolu.* Daxili auditin mahiyyəti beynəlxalq səviyyədə İnstitut of Internal Auditors (IIA) tərəfindən "müstəqil, obyektiv təminat və məsləhət fəaliyyəti" kimi müəyyən olunur. Bu fəaliyyət təşkilatın dəyər yaratmaq qabiliyyətinin artırılmasına yönəlmişdir və əsasən risklərin idarə olunması, nəzarət mexanizmlərinin effektivliyi və idarəetmə proseslərinin keyfiyyətinin qiymətləndirilməsini əhatə edir. Bank sektorunda daxili auditin funksional rolu daha geniş və çoxşaxəlidir. Bu, bankların yüksək riskli fəaliyyət sahəsi olması ilə izah olunur. Daxili audit aşağıdakı istiqamətlər üzrə sistemli təsir göstərir: *1.Risklərin idarə olunmasının qiymətləndirilməsi:* Kredit, bazar, əməliyyat və likvidlik risklərinin düzgün identifikasiyası və idarə olunması mexanizmlərinin adekvatlığı təhlil olunur; *2.Daxili nəzarət mühitinin gücləndirilməsi:* Nəzarət prosedurlarının effektivliyi və onların tətbiq səviyyəsi yoxlanılır; 3.*Uyğunluq (compliance) nəzarəti:* Milli qanunvericiliyə və beynəlxalq standartlara uyğunluq səviyyəsi qiymətləndirilir; 4.*Korporativ idarəetmənin dəstəklənməsi:* İdarəetmə strukturlarının qərarvermə mexanizmlərinin səmərəliliyi təhlil edilir.

Müasir bank idarəetməsində daxili audit "üç müdafiə xətti" modelinin əsas elementlərindən biri kimi çıxış edir. Bu modeldə birinci xətt əməliyyat idarəetməsi, ikinci xətt risk və uyğunluq funksiyaları, üçüncü xətt isə daxili auditdən ibarətdir. Daxili

audit bu sistemdə müstəqil qiymətləndirici rolunu oynayaraq digər iki xəttin fəaliyyətinin effektivliyini təmin edir.

*Strateji transformasiya kontekstində daxili auditin inkişaf istiqamətləri.* Bank sektorunda son illərdə müşahidə olunan struktur və funksional dəyişikliklər idarəetmə sistemlərinin bütün elementləri kimi daxili audit fəaliyyətinin də mahiyyət və məzmun baxımından yenidən formalaşmasını şərtləndirmişdir. Bu transformasiya yalnız texniki alətlərin yenilənməsi ilə məhdudlaşmır, eyni zamanda, daxili auditin təşkilat daxilində rolunun, funksional prioritetlərinin və qərarvermə proseslərində iştirak səviyyəsinin dəyişməsi ilə xarakterizə olunur. Müasir şəraitdə daxili audit artıq ənənəvi nəzarət mexanizmi kimi deyil, risklərin qabaqlayıcı qiymətləndirilməsini həyata keçirən və idarəetmə sisteminin effektivliyinə strateji təsir göstərən institut kimi çıxış edir.

Ənənəvi audit yanaşmalarında əsas diqqət prosedurların və əməliyyatların formal uyğunluğunun yoxlanılmasına yönəldiyi halda, müasir mərhələdə risk əsaslı audit modelinə keçid prioritet istiqamət kimi formalaşmışdır. Bu yanaşma çərçivəsində audit fəaliyyətinin planlaşdırılması və icrası bankın üzləşdiyi əsas risklərin identifikasiyası və prioritetləşdirilməsi əsasında həyata keçirilir. Beləliklə, audit resurslarının daha məqsədyönlü bölüşdürülməsi təmin olunur, yüksək riskli sahələrə fokuslanma güclənir və nəticə etibarilə idarəetmə qərarlarının keyfiyyəti yüksəlir. Risk yönümlü yanaşma daxili auditin bankın strateji məqsədləri ilə daha sıx inteqrasiyasına şərait yaradır və onu idarəetmə sisteminin aktiv iştirakçısına çevirir.

Rəqəmsallaşma proseslərinin genişlənməsi daxili audit fəaliyyətində keyfiyyətcə yeni mərhələnin başlanmasına səbəb olmuşdur. Müasir texnoloji alətlərin, xüsusilə böyük verilənlərin

analizi, süni intellekt və maşın öyrənməsi metodlarının tətbiqi audit proseslərinin həm sürətini, həm də dəqiqliyini əhəmiyyətli dərəcədə artırır. Bu texnologiyalar vasitəsilə bank əməliyyatlarının real vaxt rejimində monitorinqi mümkün olur, qeyri-adi əməliyyatlar və potensial pozuntular erkən mərhələdə müəyyən edilir, audit sübutlarının toplanması və emalı isə daha sistemli və effektiv şəkildə həyata keçirilir. Nəticədə, daxili audit yalnız retrospektiv yoxlamalar aparan struktur deyil, məlumat əsaslı analitik qərarların formalaşdırılmasında iştirak edən funksiyaya çevrilir. Bu kontekstdə proaktiv audit yanaşmasının formalaşması xüsusi əhəmiyyət kəsb edir. Əgər ənənəvi audit daha çox baş vermiş hadisələrin təhlili ilə məhdudlaşırdısa, müasir audit potensial risklərin əvvəlcədən müəyyən edilməsinə və onların qarşısının alınmasına yönəlmişdir. Bu yanaşma bankın fəaliyyətində qeyri-müəyyənliklərin təsirini azaltmağa, idarəetmə qərarlarının daha əsaslandırılmış şəkildə qəbuluna və strateji planlaşdırmanın effektivliyinin artırılmasına imkan verir. Proaktiv audit modeli daxili auditin yalnız nəzarətçi deyil, eyni zamanda risklərin idarə olunmasında tərəfdaş funksiyasını gücləndirir.

Azərbaycan Beynəlxalq Bankı timsalında aparılan yanaşma göstərir ki, daxili audit sisteminin institusional möhkəmləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması idarəetmə keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərir. Bununla belə, rəqəmsal mühitin genişlənməsi və risklərin mürəkkəbləşməsi şəraitində daxili auditin funksional imkanlarının daha da inkişaf etdirilməsi zərurəti yaranır. Xüsusilə analitik əsaslı audit yanaşmalarının tətbiqi, davamlı monitorinq mexanizmlərinin formalaşdırılması və kiber risklərin sistemli qiymətləndirilməsi bu sahədə prioritet istiqamətlər kimi çıxış edir.

Daxili auditin strateji transformasiyası bank idarəetməsinin effektivliyini artırmaqla yanaşı, risklərə davamlı və çevik idarəetmə modelinin formalaşmasına xidmət edir. Bu prosesin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi bank sektorunda uzunmüddətli sabitliyin və institusional inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 45-48
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 45-48
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Həsən Seyidbəylinin 1970–80-ci illər bədii filmlərində obrazlar sisteminin xüsusiyyətləri

**Şəlalə Camal**

***Açar sözlər:*** *Həsən Seyidbəyli, obraz sistemi, Azərbaycan kinosu, bədii film, ekran dramaturgiyası*
***Keywords:*** *Hasan Seyidbeyli, character system, Azerbaijani cinema, feature film, screen dramaturgy*

Azərbaycan kinematoqrafiyasında özünəməxsus yaradıcılıq dəst-xətti ilə seçilən Həsən Seyidbəyli milli kino sənətinin inkişafında mühüm rol oynamış rejissor və ssenaristlərdən biridir. Onun 1970–80-ci illərdə çəkdiyi bədii filmlər həm ideya-məzmun xüsusiyyətləri, həm də obraz sisteminin quruluşu baxımından diqqəti cəlb edir. Həmin dövr filmlərində obrazların yaradılması yalnız süjet xəttinin inkişafına xidmət etmir, həm də sosial-mədəni mühitin, mənəvi dəyərlərin və insan xarakterinin təqdim edilməsində əsas vasitə rolunu oynayır. Tədqiqatda Həsən Seyidbəylinin 1970–80-ci illər bədii filmlərində istifadə olunan obrazlar sistemi təhlil edilmiş, obrazların tipologiyası, dramaturji funksiyası və ekran həllinin xüsusiyyətləri araşdırılmışdır. Müəyyən edilmişdir ki, rejissorun yaratdığı obrazlar psixoloji dərinlik, daxili dinamika və xarakter inkişafı ilə seçilir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: selale.camalova@mail.ru

Obrazların təqdimatında məkan, musiqi, detal və rakurs kimi kino vasitələrinin istifadəsi onların emosional və estetik təsir gücünü artırır. Araşdırma nəticəsində Həsən Seyidbəylinin obraz yaratma konsepsiyasının Azərbaycan kino sənətində yeni bədii-estetik yanaşmanın formalaşmasına təsir etdiyi qənaətinə gəlinmişdir. Azərbaycan kino sənəti XX əsrin ikinci yarısından etibarən həm mövzu müxtəlifliyi, həm də bədii-estetik axtarışları ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Xüsusilə 1970–80-ci illər Azərbaycan kinosu milli kinematoqrafiyanın ideya, forma və məzmun baxımından zənginləşdiyi dövr kimi xarakterizə olunur. Həmin dövrdə ekran əsərlərində yalnız sosial-siyasi məsələlərin deyil, həm də insanın mənəvi dünyasının, daxili psixoloji konfliktlərinin və cəmiyyətlə münasibətlərinin təsviri daha qabarıq şəkildə özünü göstərməyə başlamışdır. Bu mərhələdə rejissor və ssenaristlərin fərdi yaradıcılıq üslubları ön plana çıxmış, obrazların təqdimatında yeni bədii həll üsulları meydana gəlmişdir (Həsənov, 2015).

Azərbaycan kino sənətinin inkişafında xüsusi xidmətləri olan yaradıcı şəxsiyyətlərdən biri Həsən Seyidbəylidir. O, milli kino tarixində həm rejissor, həm də ssenarist kimi özünəməxsus yaradıcılıq məktəbi formalaşdırmış sənətkarlardandır. Həsən Seyidbəylinin yaradıcılığı yalnız ekran hadisələrinin qurulması ilə məhdudlaşmır; onun əsərlərində insan xarakterlərinin psixoloji dərinliklə işlənilməsi, sosial münasibətlərin incə detallar vasitəsilə açılması və obrazların ideya yükünün gücləndirilməsi əsas yaradıcılıq xüsusiyyətlərindən hesab edilir (Kərimov, 2018). Rejissorun filmlərində obrazlar hadisələrin iştirakçısı olmaqla yanaşı, dövrün sosial-ictimai mühitinin və mənəvi dəyərlərinin daşıyıcısı funksiyasını da yerinə yetirirlər.

1970–80-ci illər Həsən Seyidbəyli yaradıcılığı baxımından da mühüm mərhələ hesab olunur. Bu dövrdə çəkilmiş filmlərdə

obrazların quruluşunda yeni estetik yanaşmalar müşahidə edilir. Rejissor klassik qəhrəman modeli ilə kifayətlənmir, fərdin daxili aləmini, xarakter dəyişmələrini və psixoloji vəziyyətini daha dərindən təqdim etməyə çalışır. Obrazların yaradılmasında onların yalnız xarici görünüşü və davranış xüsusiyyətləri deyil, daxili emosional vəziyyətləri, sosial mühitlə qarşılıqlı münasibətləri və mənəvi seçimləri də əsas rol oynayır. Bu baxımdan Həsən Seyidbəylinin ekran qəhrəmanları daha canlı, real və psixoloji baxımdan inandırıcı xarakter daşıyır (Əfəndiyev, 2017).

Kino nəzəriyyəsində obraz sistemi filmin strukturunu formalaşdıran mühüm elementlərdən biri hesab olunur. Obrazların qarşılıqlı əlaqəsi, xarakter inkişafı və funksional yükü ekran əsərinin ideya istiqamətini müəyyənləşdirən əsas vasitələrdəndir. Həsən Seyidbəylinin filmlərində də obrazlar sistemi yalnız süjetin inkişafı üçün istifadə olunmur; burada hər bir personaj müəyyən ideyanın, sosial mövqenin və mənəvi düşüncə modelinin təcəssümünə çevrilir. Rejissor müxtəlif tipli obrazlar vasitəsilə cəmiyyətin sosial strukturunu və insan münasibətlərini ekranda əks etdirməyə çalışmışdır (Quliyev, 2020). Həsən Seyidbəylinin ekran əsərlərində diqqəti cəlb edən mühüm cəhətlərdən biri də obrazların təqdim edilməsində kino ifadə vasitələrinin funksional istifadəsidir. Rejissor musiqi, rakurs, montaj, işıq, məkan və detal elementlərini obrazların xarakterini açmaq məqsədilə məqsədyönlü şəkildə tətbiq etmişdir. Bu vasitələr personajların emosional vəziyyətinin, daxili ziddiyyətlərinin və psixoloji xüsusiyyətlərinin tamaşaçıya çatdırılmasında xüsusi əhəmiyyət kəsb edir. Kino dilinin bu elementləri obrazların təsir gücünü artıraraq onların estetik və dramaturji dəyərini formalaşdırır (Seyidbəyli, 1985).

Müasir kinoşünaslıqda obrazların bədii həlli və funksional xüsusiyyətlərinin araşdırılması aktual elmi istiqamətlərdən biri

hesab edilir. Obrazların tipoloji xüsusiyyətlərinin, xarakter inkişaf mexanizmlərinin və ekran təqdimat üsullarının tədqiqi filmin estetik sisteminin daha dərindən öyrənilməsinə imkan yaradır. Bu baxımdan Həsən Seyidbəylinin filmlərində obraz sisteminin tədqiqi yalnız konkret bir rejissorun yaradıcılıq xüsusiyyətlərinin araşdırılması deyil, həm də Azərbaycan kino tarixinin müəyyən inkişaf mərhələsinin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Tədqiqatın əsas məqsədi Həsən Seyidbəylinin 1970–80-ci illər bədii filmlərində obrazlar sisteminin əsas xüsusiyyətlərini müəyyən etmək, obrazların tipologiyasını, dramaturji funksiyalarını və ekran həllini təhlil etməkdir. Tədqiqat çərçivəsində obrazların ideya yükü, xarakter inkişaf xüsusiyyətləri və bədii-estetik təqdimat prinsipləri araşdırılmışdır. Araşdırma nəticəsində müəyyən edilir ki, Həsən Seyidbəyli Azərbaycan kinosunda obraz yaratma prinsiplərinə yeni yanaşma gətirmiş, insan xarakterlərinin psixoloji təqdimatında fərqli ifadə üsullarından istifadə etmişdir. Onun yaratdığı obrazlar milli kino tarixində yeni bədii-estetik düşüncə modelinin formalaşmasına təsir göstərmiş və Azərbaycan kino sənətinin inkişafında mühüm yer tutmuşdur.

## Ədəbiyyat


1. Əfəndiyev, E. (2017). *Milli kino və ekran estetikası*. Elm və Təhsil.
2. Həsənov, C. (2015). *Azərbaycan kino tarixi*. Şərq-Qərb.
3. Kərimov, A. (2018). *Azərbaycan kino sənətində rejissorluq ənənələri*. Mütərcim.
4. Quliyev, C. (2020). *Azərbaycan kino sənətinin inkişaf mərhələləri*. Elm.
5. Seyidbəyli, H. (1985). *Seçilmiş əsərləri*. Yazıçı.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 49-52
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 49-52
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# İnnovativ üsulların inkişafında texnologiyanın rolu

**Ləman Əsgərli**

***Açar sözlər:*** *ingilis dili, dil öyrənmə, texnologiya, innovativ üsullar, təhsil, onlayn öyrənmə, interaktiv proqramlar*
***Keywords:*** *English language, language learning, technology, innovative methods, education, online learning, interactive software*

Müasir təhsil sahəsində texnologiyanın tətbiqi innovativ öyrənmə metodlarının inkişafında həlledici rol oynayır. İnformasiya və kommunikasiya texnologiyaları (İKT) tələbələrə fərdi öyrənmə imkanları yaradır, müəllim və tələbələr arasında qarşılıqlı əlaqəni gücləndirir və motivasiyanı artırır. Bu tezisdə texnologiyanın təhsil prosesində istifadəsi, innovativ metodların formalaşması və onların praktik nümunələri araşdırılır. Həmçinin, distant və onlayn təhsil, interaktiv proqramlar və multimedia vasitələrinin tədrisdəki əhəmiyyəti müzakirə olunur. Müasir dövrdə texnologiya təhsil sahəsində əsaslı dəyişikliklərə səbəb olur. Ənənəvi metodlar artıq tələbələrin fərdi ehtiyaclarını tam ödəyə bilmir və onların motivasiyasını təmin etməkdə çətinlik çəkir. Texnologiya ilə birləşən innovativ metodlar isə interaktiv və səmərəli öyrənmə mühiti yaradır. Bu yanaşma yalnız bilik ötürülməsini deyil, həm də tənqidi düşünmə, yaradıcılıq və əməkdaşlıq bacarıqlarının inkişafını dəstəkləyir.

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: lamanasgarli01@gmail.com

Texnologiya müəllimlərə dərs prosesini interaktivləşdirməyə, tələbələrə isə fərdi və effektiv öyrənmə imkanları yaratmağa şərait yaradır. Fliplənmiş siniflər, layihə əsaslı öyrənmə, oyunlaşdırılmış öyrənmə və qarışıq öyrənmə (blended learning) kimi innovativ metodlar texnologiyanın dəstəyi ilə uğurla tətbiq olunur.

İngilis dili tədrisində İKT vasitələrinin tətbiqi müxtəlif formalarda özünü göstərir:

- *Multimedia resursları:* Videolar, audio materiallar və interaktiv təqdimatlar.
- *Öyrənmə idarəetmə sistemləri (LMS):* Moodle, Canvas, Google Classroom.
- *Mobil öyrənmə tətbiqləri (MALL):* Duolingo, Quizlet, Memrise.
- *Onlayn əməkdaşlıq vasitələri:* Zoom, Microsoft Teams, Padlet.

Vygotskinin sosial-mədəni nəzəriyyəsinə əsasən, öyrənmə interaktiv fəaliyyətlər və müəllim dəstəyi ilə daha təsirli olur. Texnologiya tələbələrə müəllim və sinif yoldaşları ilə həm real vaxtda, həm də virtual mühitdə ünsiyyət qurmaq imkanı verir. Texnologiyanın dəstəklədiyi innovativ metodlar:

- *Fliplənmiş sinif:* Tələbələr dərs materiallarını öncədən öyrənir, sinifdə isə problem həlli və ünsiyyət fəaliyyətləri həyata keçirirlər.
- *Layihə əsaslı öyrənmə*: Tələbələr texnologiya vasitəsilə multimedia layihələr hazırlayır və dil bacarıqlarını real kontekstdə inkişaf etdirirlər.
- *Oyunlaşdırılmış öyrənmə*: Rəqəmsal oyunlar və tətbiqlər motivasiyanı artırır və dərhal geribildirim təmin edir.
- *Qarışıq öyrənmə*: Onlayn və ənənəvi dərslərin birləşməsi tələbələrə öz öyrənmə sürətinə uyğun təhsil almağa imkan verir.

Müasir öyrənmə yanaşmalarının əsas məqsədləri:

- *Kommunikativ bacarıqların inkişafı*: Tələbələr ingilis dilini nəzəri biliklə yanaşı, gündəlik ünsiyyətdə də effektiv istifadə etməyi öyrənirlər.
- *Dörd əsas dil bacarığının balanslı inkişafı:* Dinləmə, danışma, oxu və yazı bacarıqları eyni səviyyədə inkişaf etdirilir.
- *Tənqidi və yaradıcı düşüncənin təşviqi:* Tələbələr mətnləri analiz edir, qiymətləndirir və məntiqi nəticələr çıxarırlar.
- *Rəqəmsal bacarıqların artırılması:* Onlayn platformalar, mobil tətbiqlər və interaktiv proqramlar tələbələrin rəqəmsal savadlılığını yüksəldir.
- *Öyrənməyə motivasiyanın gücləndirilməsi*: Oyunlaşdırılmış öyrənmə və maraqlı texnoloji vasitələr tələbələrin dərsə marağını artırır.
- *Mədəniyyətlərarası əlaqələrin inkişafı:* Dil öyrənmək yalnız söz və qrammatika mənimsəmək deyil, həm də müxtəlif mədəniyyətləri anlamaq deməkdir.
- *Müstəqil öyrənmə bacarıqlarının formalaşdırılması:* Tələbələr öyrənmə prosesini planlamağı, təşkil etməyi və idarə etməyi öyrənirlər.

Dünya üzrə aparılmış araşdırmalar göstərir ki, texnologiyanın təhsildə səmərəli tətbiqi tələbələrin motivasiyasını artırır və akademik nəticələrini yaxşılaşdırır. Eyni zamanda, müəllimlər dərsləri fərdiləşdirə və tələbələrin öyrənmə sürətinə uyğun metodlar seçə bilirlər. Texnologiya təhsildə yeni perspektivlər açır, müəllimlərə innovativ metodları tətbiq etməyi asanlaşdırır, tələbələr isə öyrənməyə maraq göstərirlər. Lakin bunun üçün müəllimlərin davamlı peşəkar inkişafı və resurs təminatı vacibdir. Gələcəkdə süni intellekt və adaptiv öyrənmə sistemləri innovativ metodların daha da inkişafına səbəb olacaq.

Nəticə etibarilə, texnologiya innovativ tədris metodlarının inkişafında əsas vasitədir. O, öyrənmə prosesini fərdiləşdirir, interaktivliyi artırır və tələbələrin yaradıcı bacarıqlarını gücləndirir. Təhsil müəssisələri texnologiyanın imkanlarından düzgün istifadə etməklə innovativ metodları geniş şəkildə tətbiq edə bilərlər.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 53-58
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 53-58
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Turizm müəssisələrində aktivlərin dəyərsizləşməsi və yenidən qiymətləndirilməsi problemləri

**Ülkər Kərimova**

***Açar sözlər:*** *turizm müəssisələri, aktivlərin dəyərsizləşməsi, yenidən qiymətləndirmə, maliyyə hesabatlılığı, əsas vəsaitlər*
***Keywords:*** *tourism enterprises, impairment of assets, revaluation, financial reporting, fixed assets*

Turizm müəssisələrinin maliyyə dayanıqlığının təmin edilməsində aktivlərin düzgün uçotu, dəyərsizləşmə əlamətlərinin vaxtında müəyyənləşdirilməsi və yenidən qiymətləndirmə mexanizmlərinin düzgün tətbiqi xüsusi əhəmiyyət daşıyır. Turizm sektoru maddi-texniki bazaya, xidmət infrastrukturuna, mehmanxana komplekslərinə, nəqliyyat vasitələrinə, avadanlıqlara, torpaq və tikililərə, əyləncə və istirahət obyektlərinə əsaslanan kapitaltutumlu sahələrdən biridir. Bu baxımdan turizm müəssisələrində aktivlərin balans dəyərinin real iqtisadi dəyəri əks etdirməsi yalnız mühasibat uçotunun texniki məsələsi deyil, eyni zamanda, idarəetmə qərarlarının keyfiyyətinə, investisiya cəlbediciliyinə, kredit qabiliyyətinə və maliyyə hesabatlarının etibarlılığına birbaşa təsir edən mühüm amildir.

Bakı Biznes Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: kerimovaulkr@gmail.com

Turizm müəssisələrində aktivlərin dəyərsizləşməsi problemi, əsasən, aktivin balans dəyərinin onun bərpa edilə bilən məbləğindən yüksək olduğu hallarda meydana çıxır. Beynəlxalq Maliyyə Hesabatı Standartlarına əsasən, aktiv maliyyə hesabatlarında istifadədən və ya satışdan əldə edilə biləcək məbləğdən artıq dəyərlə göstərilməməlidir; əgər balans dəyəri bərpa edilə bilən məbləği üstələyirsə, həmin fərq dəyərsizləşmə zərəri kimi tanınmalıdır. Bu yanaşma xüsusilə turizm müəssisələri üçün aktualdır, çünki onların aktivlərinin gəlirgətirmə qabiliyyəti mövsümi dəyişkənlik, turist axınlarının qeyri-sabitliyi, iqtisadi böhranlar, pandemiyalar, iqlim və hava şəraiti, rəqabət mühiti, texnoloji köhnəlmə və xidmət keyfiyyətinin dəyişməsi kimi amillərdən ciddi şəkildə asılıdır. IAS 36 standartının əsas prinsipi də aktivlərin maliyyə hesabatlarında bərpa edilə bilən dəyərdən artıq məbləğlə əks etdirilməməsini tələb edir.

Turizm müəssisələrində dəyərsizləşmə riskinin yüksək olmasının əsas səbəblərindən biri aktivlərin istifadəsinin mövsümi xarakter daşımasıdır. Məsələn, dağ-xizək turizmi, yay istirahəti, sağlamlıq turizmi və əyləncə xidmətləri il ərzində eyni səviyyədə gəlir yaratmır. Qış mövsümündə aktivlərin intensiv istifadəsi mümkün olduğu halda, mövsümdənkənar dövrlərdə həmin aktivlərin gəlirgətirmə potensialı aşağı düşə bilər. Şahdağ kimi dağ turizmi kompleksləri buna nümunə göstərilə bilər; rəsmi məlumatlarda Şahdağ kurortunun Qusar rayonu ərazisində yerləşdiyi, qış və yay idman növləri üçün imkanlar təqdim etdiyi qeyd olunur. Belə müəssisələrdə kanat xətləri, xizək infrastrukturu, mehmanxana binaları, restoranlar, texniki avadanlıqlar və istirahət obyektləri yüksək dəyərli aktivlər hesab olunur və onların faktiki iqtisadi faydası turizm axınlarının dinamikasından, hava şəraitindən və xidmətlərə olan tələbdən asılı şəkildə dəyişə bilər.

Aktivlərin dəyərsizləşməsi ilə bağlı əsas problemlərdən biri müəssisələrdə dəyərsizləşmə əlamətlərinin sistemli şəkildə izlənilməməsidir. Bir çox hallarda müəssisələr aktivlərin yalnız fiziki köhnəlməsini nəzərə alır, lakin onların iqtisadi köhnəlməsi, gəlirgətirmə qabiliyyətinin azalması, bazar dəyərinin enməsi və texnoloji baxımdan geridə qalması kifayət qədər qiymətləndirilmir. Halbuki turizm sektorunda aktivin fiziki olaraq işlək vəziyyətdə olması onun iqtisadi baxımdan əvvəlki dəyərini qoruduğu anlamına gəlmir. Məsələn, mehmanxana binası və ya istirahət kompleksi istifadə üçün yararlı ola bilər, lakin xidmət standartları müasir turist tələblərinə cavab vermədikdə, həmin aktivin gəlir yaratmaq potensialı azalır. Bu isə balans dəyəri ilə real iqtisadi dəyər arasında uyğunsuzluq yaradır.

Dəyərsizləşmə testlərinin aparılmasında digər ciddi problem bərpa edilə bilən məbləğin düzgün müəyyənləşdirilməsi ilə bağlıdır. Aktivin bərpa edilə bilən məbləği, adətən, onun ədalətli dəyərindən satış xərcləri çıxılmaqla alınan məbləğ və istifadə dəyərindən daha yüksək olan göstərici kimi müəyyən edilir. Lakin turizm müəssisələrində gələcək pul axınlarının proqnozlaşdırılması mürəkkəbdir. Çünki turist sayı, otaq doluluğu, xidmət qiymətləri, mövsümi gəlirlər, inflyasiya, enerji xərcləri, təmir və saxlanma xərcləri, rəqiblərin qiymət siyasəti və dövlətin turizm siyasəti kimi çoxsaylı dəyişənlər proqnozlara təsir edir. Bu səbəbdən dəyərsizləşmə testləri formal xarakter daşımamalı, real bazar göstəricilərinə, gələcək pul axınlarının əsaslandırılmış proqnozlarına və risk amillərinin obyektiv qiymətləndirilməsinə əsaslanmalıdır.

Turizm müəssisələrində aktivlərin yenidən qiymətləndirilməsi də mühüm, lakin mürəkkəb uçot məsələlərindən biridir. Əsas vəsaitlərin yenidən qiymətləndirilməsi aktivlərin balans dəyərinin bazar dəyərinə yaxınlaşdırılmasına, maliyyə

hesabatlarının daha real təqdim olunmasına və müəssisənin kapital strukturunun obyektiv əks etdirilməsinə xidmət edir. IAS 16 standartına əsasən, əsas vəsaitlər ilkin tanınmadan sonra ya ilkin dəyər modeli, ya da yenidən qiymətləndirmə modeli əsasında uçota alına bilər; yenidən qiymətləndirmə modelində aktiv ədalətli dəyəri etibarlı şəkildə ölçülə bildikdə yenidən qiymətləndirilmiş məbləğlə, yəni qiymətləndirmə tarixindəki ədalətli dəyərdən sonrakı amortizasiya və dəyərsizləşmə çıxılmaqla göstərilir.

Yenidən qiymətləndirmə prosesində əsas problem ədalətli dəyərin düzgün və obyektiv müəyyənləşdirilməsidir. Turizm müəssisələrinin aktivləri çox vaxt unikal xarakter daşıyır. Məsələn, dağ kurortlarında yerləşən mehmanxana binaları, kanat sistemləri, süni qar avadanlıqları, xizək yolları, landşaft infrastrukturu və əyləncə obyektləri standart bazar aktivləri kimi asanlıqla müqayisə edilə bilmir. Belə aktivlərin bazar dəyərini müəyyən etmək üçün oxşar aktivlərin satış qiymətləri kifayət etməyə bilər. Bu zaman gəlir yanaşması, xərc yanaşması və bazar yanaşmasının kombinasiyasından istifadə olunması zəruridir. Lakin qiymətləndirmə metodlarının düzgün seçilməməsi aktivlərin ya süni şəkildə şişirdilmiş, ya da real dəyərindən aşağı göstərilməsi ilə nəticələnə bilər.

Aktivlərin yenidən qiymətləndirilməsində subyektivlik riski də mühüm problemdir. Müəssisə rəhbərliyi bəzən aktivlərin dəyərini artırmaqla maliyyə vəziyyətini daha güclü göstərməyə, kredit və investisiya imkanlarını yaxşılaşdırmağa və kapital göstəricilərini yüksəltməyə maraqlı ola bilər. Digər tərəfdən, bəzi hallarda aktivlərin dəyərinin aşağı göstərilməsi amortizasiya, vergi və mənfəət göstəricilərinə təsir edə bilər. Bu səbəbdən yenidən qiymətləndirmə prosesi müstəqil qiymətləndiricilər tərəfindən aparılmalı, qiymətləndirmənin metodoloji əsasları hesabatlarda şəffaf şəkildə açıqlanmalı və

nəticələr daxili audit, xarici audit və korporativ nəzarət mexanizmləri ilə yoxlanılmalıdır.

Turizm müəssisələrində dəyərsizləşmə və yenidən qiymətləndirmə problemlərinin digər tərəfi amortizasiya siyasəti ilə bağlıdır. Aktivlərin faydalı istifadə müddəti düzgün müəyyən edilmədikdə, amortizasiya xərcləri ya artıq, ya da az hesablanır. Bu isə həm mənfəət göstəricilərinə, həm də aktivlərin qalıq dəyərinə təsir edir. Məsələn, mehmanxana avadanlıqları, texniki qurğular və nəqliyyat vasitələri intensiv istifadə olunduqda onların faydalı istifadə müddəti daha qısa ola bilər. Əksinə, torpaq sahələri və strateji yerləşməyə malik daşınmaz əmlak obyektləri uzun müddət iqtisadi fayda yarada bilər. Buna görə də amortizasiya siyasəti yalnız normativ yanaşmaya deyil, aktivlərin faktiki istifadə intensivliyinə, texniki vəziyyətinə və gələcək iqtisadi faydasına əsaslanmalıdır.

Dəyərsizləşmə və yenidən qiymətləndirmə problemlərinin həlli üçün turizm müəssisələrində aktivlərin idarə olunmasına sistemli yanaşma formalaşdırılmalıdır. İlk növbədə, aktivlərin müntəzəm inventarizasiyası aparılmalı, onların fiziki vəziyyəti ilə yanaşı, iqtisadi səmərəliliyi də qiymətləndirilməlidir. Aktivlərin uçotu yalnız mühasibat registrlərində texniki qeydiyyat kimi deyil, idarəetmə uçotunun mühüm elementi kimi təşkil olunmalıdır. Hər bir əsas aktiv üzrə gəlirgətirmə qabiliyyəti, saxlanma xərcləri, təmir ehtiyacları, istifadə intensivliyi və bazar dəyəri barədə məlumat bazası yaradılmalıdır. Bu yanaşma müəssisəyə hansı aktivlərin saxlanılmalı, yenilənməli, modernləşdirilməli və ya balansdan çıxarılmalı olduğunu daha obyektiv müəyyənləşdirməyə imkan verir.

Rəqəmsallaşma da bu sahədə mühüm rol oynaya bilər. Turizm müəssisələrində aktivlərin uçotunun elektron sistemlər

üzərindən aparılması, aktivlərin istifadəsi üzrə real vaxt məlumatlarının toplanması, texniki xidmət tarixçəsinin qeydiyyatı və gəlirlilik göstəricilərinin təhlili dəyərsizləşmə risklərinin daha tez müəyyən edilməsinə şərait yaradır. Xüsusilə böyük turizm komplekslərində aktivlərin çoxsaylı və müxtəlif xarakterli olması ənənəvi uçot metodlarının effektivliyini azaldır. Rəqəmsal aktiv idarəetmə sistemləri isə hər bir aktiv üzrə texniki, maliyyə və əməliyyat məlumatlarının inteqrasiyasını təmin edərək qiymətləndirmə prosesinin daha əsaslandırılmış aparılmasına imkan verir.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 59-62
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 59-62
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Rəsmi-işgüzar üslubda tərcümə: dil qaydaları və üslub xüsusiyyətlərinin tətbiqi

**Turan Muxtarova**

***Açar sözlər:*** *rəsmi-işgüzar üslub, tərcümə nəzəriyyəsi, dil normaları, terminologiya, üslubi adekvatlıq, ekvivalentlik, kommunikasiya, tərcümə strategiyaları*
***Keywords:*** *official-business style, translation theory, language norms, terminology stylistic adequacy, equivalence, communication, translation strategies*

Dil yalnız insanlar arasında ünsiyyət vasitəsi olmaqla kifayətlənmir, həm də dövlət idarəçiliyi, hüquqi münasibətlər və beynəlxalq əməkdaşlıq sahələrində əsas rol oynayır. Qloballaşmanın sürətlənməsi nəticəsində müxtəlif dövlətlər, beynəlxalq qurumlar və transmilli şirkətlər arasında əlaqələrin intensivləşməsi rəsmi sənədlərin tərcüməsinə tələbatı xeyli artırmışdır. Bu baxımdan, rəsmi-işgüzar üslubda tərcümə yalnız dil biliklərinə əsaslanan bir fəaliyyət deyil; eyni zamanda hüquq, siyasət, iqtisadiyyat və beynəlxalq münasibətlər kimi sahələr ilə sıx əlaqəli olan mürəkkəb bir prosesdir.

Rəsmi-işgüzar üslub funksional üslublar sistemində xüsusi yer tutur və dövlət idarəçiliyi, hüquqi münasibətlər, diplomatik yazışmalar və təşkilati fəaliyyət sahələrində geniş tətbiq olunur. Bu üslubun əsas vəzifəsi məlumatın dəqiq, obyektiv və birmənalı şəkildə təqdim edilməsidir.

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: turanmukhtarova@gmail.com

Buna görə də tərcümə prosesində yaranan hər hansı bir qeyri-dəqiqlik hüquqi, siyasi və ya iqtisadi nəticələrə səbəb ola bilər. Müasir tərcüməşünaslıq baxımından, rəsmi-işgüzar tərcümə funksional ekvivalentliyin ən yüksək səviyyədə qorunmasını tələb edən xüsusi tərcümə növü kimi qiymətləndirilir. Tərcüməçi yalnız söz və ifadələrin mənasını ötürməkdən ibarət deyil; eyni zamanda, mətnin hüquqi qüvvəsini, funksional məqsədini və kommunikativ rolunu qorumağa məsuliyyət daşıyır.

Rəsmi-işgüzar üslub cəmiyyətin inzibati, hüquqi və təşkilati fəaliyyətini dəstəkləyən funksional üslubdur. Bu üslub qanunvericilik aktları, qərarlar, sərəncamlar, müqavilələr, ərizələr, protokollar, diplomatik sənədlər və işgüzar yazışmalarda tətbiq olunur. Rəsmi üslubun ən əsas xüsusiyyəti ifadələrin dəqiqlik və konkretlik prinsipinə əsaslanmasıdır. Hər bir termin və ifadə spesifik semantik məna daşıyır və məsələn, hüquqi sənədlərdə istifadə olunan termin bir neçə şəkildə şərh edilə bilməz. Tərcümə zamanı bu dəqiqliyin qorunması əsas prioritetdir. Rəsmi yazışmalarda və hüquqi sənədlərdə müəyyən standart ifadələr geniş istifadə olunur. Bu ifadələr, məsələn, "qərara alındı ki…", "bu müqavilə tərəflər arasında bağlanmışdır" və "qanun qüvvəyə mindiyi gündən etibarən" kimi formulalar, mətnin normativ və rəsmi xarakterini gücləndirir və tərcümədə də adekvat şəkildə qorunmalıdır.

Məsələn:
- "Qərara alındı ki..."
- "Bu müqavilə tərəflər arasında bağlanmışdır."
- "Qanun dərc edildiyi gündən qüvvəyə minir."
- "Aşağıdakılar müəyyən edilir."

Bu standart konstruksiyalar sənədin rəsmi xarakterini gücləndirir və tərcümədə də adekvat şəkildə verilməlidir. Rəsmi

sənədlərdə terminlərin ardıcıl işlənməsi vacibdir. Eyni anlayışın müxtəlif sözlərlə ifadəsi hüquqi qeyri-müəyyənlik yarada bilər. Buna görə də terminoloji vahidlik tərcümənin əsas keyfiyyət göstəricilərindən biri hesab edilir.

Dil normaları ədəbi dilin sabitliyini və vahidliyini təmin edən qaydalar sistemidir. Tərcümə zamanı bu normalara əməl olunması mətnin keyfiyyətinə birbaşa təsir göstərir. Rəsmi sənədlərin tərcüməsində söz seçimi xüsusi diqqət tələb edir. Tərcüməçi sözün yalnız lüğəvi mənasını deyil, onun hüquqi və inzibati funksiyasını da nəzərə almalıdır. Məsələn: Agreement – Saziş, contract – müqavilə, regulation – qaydalar və ya normativ akt, decree – fərman, resolution – qərar. Bu terminlər bəzən yaxın mənalı görünsə də, hüquqi məzmun baxımından fərqlənirlər. Rəsmi sənədlərdə daha çox üçüncü şəxs formaları və xəbər xarakterli cümlələr işlədilir. Tərcümə zamanı hədəf dilin qrammatik normaları qorunmalıdır. Məsələn, ingilis dilində passiv konstruksiyalar daha geniş istifadə edilir: "The application shall be reviewed within 30 days." Azərbaycan dilində: "Müraciətə 30 gün müddətində baxılmalıdır." Belə transformasiya mətnin təbii səslənməsini təmin edir.

Rəsmi sənədlərin tərcüməsi yüksək səviyyədə peşəkar hazırlıq və xüsusi biliklər tələb edən fəaliyyət sahəsidir. Bu istiqamətdə çalışan tərcüməçi güclü dil bacarıqlarına, terminoloji biliklərə, hüquqi sahə üzrə məlumatlılığa, mədəniyyətlərarası ünsiyyət qabiliyyətinə, analitik düşüncə tərzinə, eləcə də redaktə və korrektə vərdişlərinə malik olmalıdır. Sadalanan kompetensiyalar tərcümə prosesinin səmərəliliyinin artırılmasında və mətnin keyfiyyətinin təmin edilməsində mühüm rol oynayır. Aparılmış tədqiqatın nəticələri göstərir ki, rəsmi-işgüzar üslubda tərcümə tərcüməşünaslığın və dilçiliyin ən məsuliyyətli istiqamətlərindən biri hesab olunur. Bu sahədə uğurlu nəticənin əldə edilməsi üçün ədəbi dil normalarına riayət

edilməsi, terminoloji vahidliyin qorunması, sintaktik quruluşun düzgün ötürülməsi və üslubi uyğunluğun təmin olunması əsas şərtlər sırasındadır.

Müasir qloballaşma şəraitində dövlətlər, beynəlxalq təşkilatlar və müxtəlif qurumlar arasında əlaqələrin genişlənməsi rəsmi-işgüzar tərcümənin aktuallığını və əhəmiyyətini daha da artırır. Bu səbəbdən sahə üzrə elmi araşdırmaların dərinləşdirilməsi, terminoloji resursların zənginləşdirilməsi və yüksək ixtisaslı tərcüməçi kadrlarının hazırlanması günümüzün vacib istiqamətlərindən biri kimi qiymətləndirilir.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 63-64
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 63-64
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Kinodramaturgiyada ədəbi portretin vizuallaşdırılması mexanizmi: İsmayıl Şıxlının "Dəli Kür" romanı əsasında

**Zakir Həsənzadə**

***Açar sözlər:*** *ədəbi portret, vizuallaşdırma, ekranlaşdırma, kinodramaturgiya, İsmayıl Şıxlı, "Dəli Kür", obrazın transformasiyası, kino dili, vizual kodlar, semiotik analiz, naratoloji yanaşma, psixoloji portret, bədii təsvir, kino adaptasiyası, kompozisiya həlli*
***Keywords:*** *literary portrait, visualization, screen adaptation, film dramaturgy, Ismayil Shikhli, "Crazy Kur", transformation of the image, film language, visual codes, semiotic analysis, narratological approach, psychological portrait, artistic depiction, film adaptation, compositional solution*

İsmayıl Şıxlının "Dəli Kür" romanı Azərbaycan nəsrində obrazın daxili aləmini çoxplanlı şəkildə təqdim edən nümunələrdən biri kimi ədəbi portretin ekranlaşdırma baxımından araşdırılmasına geniş imkan yaradır. Tədqiqatın məqsədi romanın ədəbi portret sisteminin kino dramaturgiyasına keçidi zamanı baş verən transformasiya modellərini müəyyənləşdirmək, vizual ifadə vasitələrinin mətndəki bədii təsvir elementləri ilə semantik uyğunluğunu təhlil etməkdir.

Tədqiqat prosesində müqayisəli təhlil, naratoloji yanaşma, kino dilinin semiotik təfsiri və portret təsvirinin poetik strukturlarının analizinə əsaslanan metodlar tətbiq edilir.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, Azərbaycan
E-poçt: zakirhasan02@icloud.com

Araşdırma göstərir ki, "Dəli Kür"ün ekranlaşdırılmasında ədəbi portretin vizuallaşdırılması yalnız mətnin kino dilinə adaptasiyası deyil, həm də obrazın psixoloji keyfiyyətlərini, sosial davranış modelini və mənəvi ziddiyyətlərini vizual kodlar vasitəsilə yenidən interpretasiya edən çoxsəviyyəli yaradıcılıq mexanizmidir.

Nəticə olaraq müəyyən edilir ki, film versiyasında portretin kompozisiya çərçivəsində yenidən qurulması kino estetikasının tələblərinə uyğun olaraq obrazın funksional yükünü genişləndirir və romanda mövcud olan mənalandırma qatlarına əlavə vizual dəyərlər qazandırır. Bu baxımdan tədqiqat ədəbi portretin ekranlaşdırma nəzəriyyəsi üçün tətbiqi əhəmiyyət daşıyır və yerli kino-nəzəri mühitdə mövzunun sistemli şəkildə işlənməsinə töhfə verir.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 65-68
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 65-68
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Z nəsli tələbələrinin universitet seçimində nəzəri yanaşmalar və müasir tendensiyalar

**Tamara Mirzəlizadə[1*], Xanpəri Vəlizadə Məmmədli[1], Aylin Məmmədzadə[1]**

***Açar sözlər:*** *tələbə, universitet, təhsil haqqı, təqaüd imkanları, ali təhsil sistemi*
***Keywords:*** *student, university, tuition fees, scholarship opportunities, higher education system*

Müasir dövrdə ali təhsil sistemi sosial, iqtisadi və texnoloji dəyişikliklərin təsiri altında transformasiya olunur. Universitetlərin sayının artması, ali təhsil müəssisələri arasında rəqabətin güclənməsi və rəqəmsal texnologiyaların gündəlik həyata inteqrasiyası tələbələrin universitet seçimi davranışına əhəmiyyətli təsir göstərmişdir. Xüsusilə Z nəsli nümayəndələri əvvəlki nəsillərlə müqayisədə fərqli sosial və davranış xüsusiyyətlərinə malik olduqları üçün onların ali təhsil seçim motivləri ayrıca tədqiqat obyekti kimi aktuallıq qazanmışdır. Texnologiya ilə böyüyən bu nəsil informasiya əldə etmə və qərarvermə prosesində rəqəmsal platformalardan geniş istifadə edir. Bu baxımdan universitet seçimi yalnız akademik qərar deyil, sosial, iqtisadi və rəqəmsal faktorların qarşılıqlı təsiri nəticəsində formalaşan mürəkkəb davranış prosesi hesab edilir.

Azərbaycan Texniki Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: tamara.mirzelizade93@icloud.com

Aparılmış tədqiqatlar göstərir ki, tələbələrin universitet seçiminə təsir edən amillər çoxşaxəlidir. Universitetin coğrafi yerləşməsi, təhsil haqqı, təqaüd imkanları, ali təhsil müəssisəsinin nüfuzu, ailə və dost təsiri, həmçinin, gələcək karyera perspektivləri əsas təsir faktorları sırasında yer alır. Son illərdə sosial media platformalarının və rəqəmsal marketinq vasitələrinin inkişafı da tələbə seçim davranışında mühüm determinantlardan birinə çevrilmişdir. Ali təhsil üzrə ədəbiyyatda universitet seçimi prosesini izah edən müxtəlif nəzəri yanaşmalar mövcuddur. Bu yanaşmalar əsasən iqtisadi, sosioloji, kompleks qərarvermə və marketinq modelləri çərçivəsində inkişaf etmişdir. Universitet seçimi prosesini sistemli şəkildə izah edən ən geniş yayılmış modellərdən biri Hossler və Gallagher (1987) tərəfindən irəli sürülmüş üçmərhələli modeldir.

Hossler və Gallagher modelinə əsasən universitet seçimi prosesi üç mərhələdən ibarətdir: predisposition (meyillilik), search (axtarış) və choice (seçim). Birinci mərhələdə şagird ali təhsil alıb-almamaq barədə qərar verir. Bu mərhələdə ailənin sosial-iqtisadi statusu, akademik nailiyyətlər, valideyn təsiri və sosial mühit mühüm rol oynayır. İkinci mərhələ olan axtarış mərhələsində tələbə müxtəlif universitetlər və proqramlar haqqında məlumat toplayır, alternativləri müqayisə edir və qiymətləndirir. Sonuncu mərhələ olan seçim mərhələsində isə tələbə topladığı məlumatlar əsasında konkret universitet və ya ixtisas seçimini həyata keçirir.

Bununla yanaşı, model müəyyən məhdudiyyətlərə malikdir. Sonrakı tədqiqatlar göstərmişdir ki, universitet seçimi prosesi hər zaman xətti şəkildə inkişaf etmir və tələbələr qərarvermə prosesində mərhələlər arasında geri dönüş edə bilirlər. Eyni zamanda, model müraciət mərhələsini ayrıca nəzərə almır ki, bu da ali təhsil seçimi prosesində mühüm komponent hesab olunur. Universitet seçimi ilə bağlı digər mühüm nəzəri yanaşmalardan

biri Chapman (1981) modeli hesab olunur. Bu model universitet seçimini şəxsi xüsusiyyətlər və xarici təsirlərin qarşılıqlı əlaqəsi əsasında izah edir. Modelə görə valideynlər, müəllimlər və dostlar kimi sosial təsir agentləri tələbənin qərarvermə prosesində mühüm rol oynayır. Bununla yanaşı, universitetin yerləşməsi, maliyyə imkanları, kommunikasiya fəaliyyəti və institusional imici də seçim prosesinə təsir göstərən əsas amillər sırasındadır.

Chapman modelinin əsas üstünlüyü universitet seçimini yalnız mərhələli proses kimi deyil, qarşılıqlı təsir mexanizmi kimi təqdim etməsidir. Müasir tədqiqatlar göstərir ki, xüsusilə Z nəsli tələbələri universitetin nüfuzundan daha çox praktiki faydaya və gələcək karyera imkanlarına üstünlük verirlər. Əmək bazarına hazırlıq səviyyəsi, məzun olduqdan sonra iş tapmaq imkanları və praktiki bacarıqlar müasir tələbələr üçün əsas prioritetlər hesab olunur.

Z nəsli rəqəmsal texnologiyalar mühitində formalaşmış nəsil olduğuna görə onların qərarvermə davranışında internet və sosial media mühüm rol oynayır. Müasir tələbələr universitetlər haqqında məlumat əldə etmək məqsədilə yalnız rəsmi internet səhifələrindən deyil, eyni zamanda, Instagram, TikTok, YouTube və digər sosial media platformalarından da aktiv şəkildə istifadə edirlər. Universitetlərin rəqəmsal imici və onlayn kommunikasiya fəaliyyəti tələbələrin seçim niyyətinə birbaşa təsir göstərir. Bu kontekstdə Consumer Decision Model (CDM) yanaşması xüsusi aktuallıq kəsb edir. Modelə əsasən istehlakçının qərarvermə prosesi məlumat axtarma, brend tanınması, etimad, münasibət, niyyət və seçim mərhələləri əsasında formalaşır. Sosial media vasitəsilə yayılan sistemli və davamlı məlumat universitet haqqında müsbət imic və etimadın formalaşmasına təsir göstərə bilir (Sriyanto və b., 2025). Bu baxımdan, universitetlərin rəqəmsal marketinq fəaliyyəti

tələbələrin seçim davranışına təsir edən mühüm vasitələrdən biri hesab olunur.

Aparılmış tədqiqatlar göstərir ki, sosial media marketinqi universitetlərin brend dəyərinin formalaşmasına və rəqabət üstünlüyü əldə etməsinə müsbət təsir göstərir. Xüsusilə Z nəsli tələbələri üçün real tələbə təcrübələri, videoməzmunlar və sosial mediada paylaşılan rəylər ənənəvi reklam vasitələrindən daha təsirli hesab olunur. Bu isə ali təhsil müəssisələrinin kommunikasiya strategiyalarında rəqəmsal transformasiyanın əhəmiyyətini artırır. Nəticə etibarilə, müasir dövrdə universitet seçimi çoxmilli və dinamik qərarvermə prosesi kimi xarakterizə olunur. Ənənəvi sosial və iqtisadi faktorlarla yanaşı rəqəmsal təsirlər və sosial media platformaları da tələbə seçim davranışında mühüm rol oynayır. Hossler və Gallagher modeli universitet seçimini mərhələli şəkildə izah etsə də, Chapman modeli və Consumer Decision Model müasir tələbə davranışını daha kompleks formada anlamağa imkan yaradır. Z nəsli tələbələrinin universitet seçimi prosesində praktiki fayda, karyera perspektivləri və rəqəmsal informasiya mənbələri əsas prioritetlər hesab edilir. Bu səbəbdən ali təhsil müəssisələri yalnız akademik keyfiyyət göstəricilərinə deyil, eyni zamanda, rəqəmsal kommunikasiya, sosial media fəaliyyəti və tələbəyönümlü marketinq strategiyalarına da xüsusi diqqət yetirməlidirlər.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 69-72
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 69-72
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Turizm startaplarının inkişafı: trendlər və perspektivlər

**Maqsud Məmmədzadə**

***Açar sözlər:*** *startap, turizm, innovasiya, sahibkarlıq, rəqəmsallaşma, ekosistem*
***Keywords:*** *startups, tourism, innovation, entrepreneurship, digitalization, startup ecosystem*

Tədqiqatın məqsədi turizm startaplarının inkişafının müasir tendensiyalarını təhlil etmək və onların gələcək inkişaf perspektivlərini müəyyənləşdirməkdən ibarətdir. İşdə startapların innovativ sahibkarlıq forması kimi nəzəri aspektləri açıqlanır, həmçinin, onların inkişafının əsas istiqamətləri – rəqəmsal platformalar, mobil tətbiqlər, süni intellekt texnologiyalarının istifadəsi və dayanıqlı turizm prinsiplərinin tətbiqi – araşdırılır. Xüsusi diqqət Azərbaycanın startap ekosisteminin təhlilinə, onun inkişafına töhfə verən amillərin və mövcud məhdudiyyətlərin müəyyənləşdirilməsinə yönəldilir.

Qloballaşma və iqtisadiyyatın rəqəmsal transformasiyası şəraitində turizm sahəsi ən dinamik inkişaf edən sahələrdən biri kimi çıxış edir. Bu prosesdə innovasiyaların, yeni biznes modellərinin və texnoloji həllərin əsas mənbəyi kimi startaplar mühüm rol oynayır.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: uvtthvu@gmail.com

Xüsusilə keçid iqtisadiyyatına malik ölkələrdə, o cümlədən Azərbaycanda turizm startaplarının inkişafının öyrənilməsi böyük aktuallıq kəsb edir. Belə ki, bu ölkələrdə müasir innovasiya ekosisteminin formalaşması prosesi intensiv şəkildə davam edir.

Startaplar turizm fəaliyyətinin təşkili sahəsində yeni texnologiyaların, xidmətlərin və yanaşmaların tətbiqinə yönəlir; bu istiqamətə rəqəmsal platformaların yaradılması, proseslərin avtomatlaşdırılması və xidmətlərin fərdiləşdirilməsi daxildir. Startaplar, əsasən, yüksək inkişaf potensialına malik seqmentlərə yönəlir və bu seqmentlər sırasında onlayn turizm, fərdi səyahətlər və rəqəmsal xidmətlər xüsusi yer tutur. Eyni zamanda, onların xarici mühitdə baş verən dəyişikliklərə, istehlakçı tələbinə və texnoloji trendlərə sürətlə uyğunlaşma qabiliyyəti əsas üstünlüklərdən biri kimi çıxış edir. Elmi yanaşmalar baxımından turizm sahəsində startapların inkişafı innovasiya iqtisadiyyatı, sahibkarlıq ekosistemi və rəqəmsal transformasiya konsepsiyaları ilə sıx bağlıdır. Xüsusilə, startapların dövlət qurumları, investorlar və iri şirkətlərlə aktiv qarşılıqlı əlaqəsini nəzərdə tutan "açıq innovasiyalar" nəzəriyyəsi mühüm əhəmiyyət kəsb edir.

Son illərdə Azərbaycanda startap ekosisteminin aktiv formalaşması və inkişafı müşahidə olunur ki, bu da iqtisadiyyatın xammal yönümlü modeldən innovasiyaya əsaslanan inkişaf modelinə keçidi ilə bağlıdır. Bu proses rəqəmsal texnologiyaların tətbiqi, dövlət dəstəyinin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın genişlənməsi ilə müşayiət olunur. Azərbaycanın startap ekosistemi hələ formalaşma mərhələsində olsa da, sabit müsbət dinamika nümayiş etdirir. Beynəlxalq tədqiqatların qiymətləndirmələrinə əsasən, ölkə Mərkəzi Avrasiya regionunda inkişaf etməkdə olan innovasiya mərkəzlərindən biri hesab olunur və onun Qafqaz və

Mərkəzi Asiya üzrə startap ekosistemində payı təxminən 13–15% təşkil edir. Bununla yanaşı, ekosistemin illik artım tempi təxminən 24–25% səviyyəsində qiymətləndirilir ki, bu da onun yüksək inkişaf sürətindən xəbər verir. İnnovasiya fəallığının əsas mərkəzi Bakı şəhəridir ki, o, tədricən beynəlxalq arenada mövqeyini möhkəmləndirir. Startap ekosistemlərinin qlobal reytinqlərinə əsasən, Azərbaycanın paytaxtı əhəmiyyətli artım nümayiş etdirir, dünya reytinqlərində mövqeyini yaxşılaşdırır və bu sahədə ən sürətlə inkişaf edən şəhərlər sırasında yer alır. Xüsusilə Bakı rəqəmsal texnologiyaların aktiv tətbiqi, elektron ticarətin inkişafı və innovativ xidmətlərin genişləndirilməsi sayəsində regional inkişafın liderlərindən biri kimi qeyd olunur.

Hazırda ölkəmizdə informasiya texnologiyaları, nəqliyyat, marketinq və turizm də daxil olmaqla müxtəlif iqtisadi sahələri əhatə edən 200-dən çox startap fəaliyyət göstərir. Dövlət strategiyası isə yaxın illərdə bu göstəricinin 500 startapa çatdırılmasını nəzərdə tutur ki, bu da innovativ inkişafın uzunmüddətli prioritet kimi qəbul edildiyini göstərir. Rəqəmsal iqtisadiyyatın və innovasiyaların inkişafına yönəlmiş dövlət qurumlarının fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Bu təşəbbüslər çərçivəsində startaplar üçün əlverişli mühit formalaşdırılır, o cümlədən təhsil resurslarına çıxış, mentor dəstəyi və maliyyələşmə imkanları təmin olunur.

Son illərdə Azərbaycanda investisiya fəallığının artması müşahidə olunur: belə ki, 2022–2024-cü illər ərzində startaplar ümumilikdə 2,4 milyon avrodan çox investisiya cəlb etmişdir. İnkişaf etmiş ölkələrlə müqayisədə investisiya həcmləri nisbətən aşağı olsa da, bu göstərici beynəlxalq investorlar tərəfindən artan etimadı və vençur bazarının tədricən formalaşdığını əks etdirir. Azərbaycan qlobal innovasiya sisteminə aktiv şəkildə inteqrasiya olunur. Beynəlxalq reytinqlərdə, forumlarda və akselerasiya proqramlarında iştirak ölkənin investisiya

cəlbediciliyinin artmasına və startaplar üçün imkanların genişlənməsinə şərait yaradır. Ekspertlər qeyd edirlər ki, inkişafın ilkin mərhələsində olmasına baxmayaraq, Bakı startap ekosistemi beynəlxalq əməkdaşlığın gücləndirilməsi və xarici kapitalın cəlb edilməsi şərti ilə qlobal innovasiya zəncirlərinə inteqrasiya potensialına malikdir.

Beləliklə, Azərbaycanın startap ekosistemi aktiv formalaşma mərhələsindədir və yüksək inkişaf tempi ilə yanaşı, əhəmiyyətli inkişaf potensialı nümayiş etdirir. Qlobal rəqəmsallaşma və iqtisadiyyatın diversifikasiyası şəraitində startaplar ölkənin rəqabət qabiliyyətinin artırılmasında, o cümlədən turizm sahəsində mühüm alətə çevrilir. Ekosistemin gələcək inkişafı institusional islahatların dərinləşdirilməsindən, maliyyə resurslarına çıxışın genişləndirilməsindən və beynəlxalq innovasiya şəbəkələrinə inteqrasiyanın gücləndirilməsindən asılı olacaqdır.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 73-76
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 73-76
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# F.Şopenin fortepiano yaradıcılığında müxtəlif janrların təcəssümü

**Nigar İsmayıllı**

***Açar sozlər:*** *F.Şopen, fortepiano musiqisi, janr müxtəlifliyi romantik musiqi, musiqi janrları*
***Keywords:*** *F.Chopin, piano music, genre diversity, romantic music, musical genres*

XIX əsr Avropa musiqi mədəniyyəti dərin estetik dəyişikliklər, fərdi ifadə azadlığının güclənməsi və sənətdə emosional-subyektiv başlanğıcın ön plana çıxması ilə xarakterizə olunur. Bu dövr, xüsusilə romantik musiqi mərhələsi, bəstəkarların daxili aləmini, hiss və düşüncələrini musiqi vasitəsilə daha sərbəst və fərdi şəkildə ifadə etmələrinə geniş imkan yaratmışdır. Belə bir tarixi və mədəni kontekstdə fəaliyyət göstərən Friderik Şopen fortepiano sənətinin inkişafında müstəsna rol oynamış, bu alətin ifadə imkanlarını yeni estetik səviyyəyə yüksəltmişdir. Şopen yaradıcılığı romantik dövrün əsas ideyalarını fərdiyyətçilik, lirizm, milli özünüdərk və emosional dərinlik özündə cəmləşdirərək fortepiano musiqisində yeni üslub istiqamətinin formalaşmasına təkan vermişdir. O, demək olar ki, bütün yaradıcılığını fortepianoya həsr etmiş nadir bəstəkarlardan biridir. Bu xüsusiyyət onun musiqi dilinin son dərəcə konsentrasiyalı, zəngin və spesifik olmasını şərtləndirmişdir. Şopen üçün fortepiano sadəcə ifa aləti deyil, insan ruhunun ən incə çalarlarını ifadə edən poetik bir vasitə idi.

Naxçıvan Dövlət Universiteti, magistrant, Naxçıvan, Azərbaycan
E-poçt: nigarismayıllı@gmail.com

Bəstəkarın yaradıcılığının mühüm xüsusiyyətlərindən biri müxtəlif musiqi janrlarına yanaşma tərzidir. O, klassik ənənədən miras qalmış janrları (məsələn, sonata, etüd, prelüd) qoruyub saxlayaraq onları yeni məzmun və ifadə vasitələri ilə zənginləşdirmiş, eyni zamanda, bəzi janrları (məsələn, ballada) instrumental musiqidə müstəqil və yüksək bədii forma kimi inkişaf etdirmişdir. Bununla yanaşı, Şopen milli musiqi elementlərini xüsusilə polyak xalq rəqslərinə xas ritmik və intonasiya xüsusiyyətlərini öz əsərlərində ustalıqla tətbiq edərək fərdi üslubunu daha da orijinal etmişdir.

Şopenin fortepiano yaradıcılığı yalnız janr müxtəlifliyi ilə deyil, həm də bu janrların daxili strukturunun transformasiyası ilə diqqət çəkir. Onun əsərlərində forma və məzmun arasında sıx əlaqə müşahidə olunur; musiqi janrı artıq yalnız xarici çərçivə deyil, bədii ideyanın birbaşa ifadə vasitəsinə çevrilir. Bu yanaşma nəticəsində Şopenin əsərləri həm texniki baxımdan yüksək səviyyəli, həm də emosional və fəlsəfi cəhətdən dərin məzmunlu sənət nümunələri kimi çıxış edir. Friderik Şopenin fortepiano yaradıcılığı janr baxımından son dərəcə zəngin və çoxşaxəlidir. Onun əsərləri yalnız müxtəlif janrları əhatə etməklə kifayətlənmir, eyni zamanda bu janrların daxili məzmununu, struktur prinsiplərini və ifadə imkanlarını köklü şəkildə yenidən formalaşdırır. Şopen janr anlayışına statik çərçivə kimi deyil, dinamik və inkişaf edən bədii sistem kimi yanaşır. Bu səbəbdən onun yaradıcılığında hər bir janr həm ənənəyə bağlı, həm də fərdi üslubun təsiri ilə yenilənmiş formada çıxış edir.

Şopen yaradıcılığında janr müxtəlifliyini şərti olaraq iki əsas istiqamətdə nəzərdən keçirmək olar: 1.klassik ənənədən gələn janrların transformasiyası; 2.milli və fərdi üslub əsasında formalaşan janrların inkişafı. İlk növbədə, klassik ənənəyə aid olan etüd, prelüd və sonata kimi janrların Şopen yaradıcılığında

qazandığı yeni məzmun diqqətəlayiqdir. Etüd janrı, əvvəlki dövrlərdə əsasən texniki məşq xarakteri daşıdığı halda, Şopen tərəfindən yüksək bədii səviyyəli konsert əsərlərinə çevrilmişdir. Onun etüdlərində texniki elementlər – arpejlər, oktavalar, sürətli pasajlar – musiqi obrazının ayrılmaz hissəsinə çevrilir. Burada texnika məqsəd deyil, ifadə vasitəsidir. Bu yanaşma etüd janrının tarixində dönüş nöqtəsi hesab olunur.

Prelüd janrı da Şopen tərəfindən yeni məzmun qazanmışdır. Əvvəllər əsasən digər əsərlərə giriş funksiyası daşıyan prelüdlər, onun yaradıcılığında müstəqil miniatürlər kimi formalaşır. 24 prelüddən ibarət silsilə hər biri fərqli emosional vəziyyəti əks etdirən, lakonik, lakin dərin məzmunlu musiqi düşüncələrinin toplusudur. Burada janrın qısalığı onun ifadə gücünü məhdudlaşdırmır, əksinə, konsentrasiyanı artırır. Sonata janrı isə Şopen yaradıcılığında klassik forma ilə romantik məzmunun sintezi kimi çıxış edir. O, sonata forması prinsiplərini qoruyaraq bu çərçivəni daha sərbəst və emosional baxımdan zəngin şəkildə tətbiq edir. Nəticədə sonata janrı yalnız formal konstruksiya deyil, dramatik və fəlsəfi ideyaların ifadə vasitəsinə çevrilir. Şopen yaradıcılığında ikinci mühüm istiqamət romantik dövrə xas janrların inkişafıdır. Noktyurn, vals, ballada və skertso kimi janrlar onun yaradıcılığında xüsusi yer tutur. Noktyurnlar bəstəkarın lirizmini ən dolğun şəkildə əks etdirir. Burada melodik xətt vokal xarakter daşıyır, müşayiət isə harmonik zənginlik və incə faktura ilə seçilir. Noktyurn janrı vasitəsilə Şopen insanın daxili aləmini, hiss və düşüncələrini musiqi dili ilə incəliklə ifadə edir. Vals janrı Şopen yaradıcılığında yeni estetik səviyyəyə yüksəlir. Ənənəvi rəqs musiqisi olmaqdan çıxaraq, emosional və bəzən hətta dramatik məzmun daşıyan bədii əsərlərə çevrilir. Bu valslarda ritmik sabitliklə yanaşı, rubato prinsipi geniş tətbiq olunur ki, bu da musiqiyə elastiklik və ifadəlilik qazandırır. Ballada janrı isə Şopenin ən mühüm yeniliklərindən biri hesab olunur. Əvvəllər daha çox ədəbi janr

kimi tanınan ballada, onun yaradıcılığında instrumental musiqidə epik-dramatik inkişafı əks etdirən müstəqil forma kimi meydana çıxır. Bu əsərlərdə süjetvari inkişaf, kontrastlı mövzular və kulminasiya nöqtələrinin qurulması xüsusi əhəmiyyət daşıyır. Skertso janrı da Şopen tərəfindən yenidən interpretasiya olunur. Klassik dövrdə yüngül və zarafat xarakterli bu janr, onun yaradıcılığında dramatik, bəzən isə faciəvi məzmun kəsb edir. Bu dəyişiklik romantik estetikanın janr üzərində təsirinin bariz nümunəsidir.

Şopen yaradıcılığında milli janrların xüsusi rolu vardır. Onun mazurka və polonezləri polyak xalq musiqisinin təsiri altında formalaşmışdır. Mazurkalar ritmik sərbəstlik, aksentlərin qeyri-adi yerləşməsi və improvizasiya xarakteri ilə seçilir. Bu əsərlərdə xalq musiqisinə xas intonasiya xüsusiyyətləri qorunub saxlanılır, lakin yüksək peşəkar kompozisiya texnikası ilə işlənir. Polonezlər isə daha təntənəli və qəhrəmanlıq ruhlu janr kimi çıxış edir, milli qürur və azadlıq ideyalarını əks etdirir. Bütün bu janrların ümumi xüsusiyyəti ondan ibarətdir ki, Şopen onları yalnız forma kimi deyil, dərin emosional və fəlsəfi məzmunun daşıyıcısı kimi təqdim edir. Onun musiqisində janr sərhədləri bəzən şərti xarakter daşıyır; müxtəlif janr elementləri bir əsər daxilində qarşılıqlı şəkildə sintez oluna bilir. Bu isə onun yaradıcılığına xüsusi bütövlük və orijinallıq qazandırır.

Nəticə olaraq demək olar ki, Friderik Şopenin fortepiano yaradıcılığında janr müxtəlifliyi sadəcə kəmiyyət göstəricisi deyil, keyfiyyətcə yeni bədii düşüncə tərzinin təzahürüdür. O, mövcud janrları yenidən mənalandırmış, onların ifadə imkanlarını genişləndirmiş və fortepiano musiqisinin inkişafında mühüm mərhələ yaratmışdır. Bu baxımdan Şopen yaradıcılığı musiqi tarixində janr transformasiyasının ən parlaq nümunələrindən biri kimi qiymətləndirilir.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 77-78
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 77-78
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# Evolution of Landscape Architecture in Shanghai: from Classical Gardens to Haipai Style

**Li Wenxia**

***Keywords:*** *landscape architecture, Shanghai, classical gardens, Haipai style, evolution*
***Açar sözlər:*** *landşaft memarlığı, Şanxay, klassik bağlar, haypay üslubu, təkamül*

Landscape architecture is an important part of China's cultural heritage. Shanghai has a long history of garden art. Before the opening of the port, Shanghai developed traditional classical gardens in the style of Jiangnan. These gardens were private and closed to the public, based on the philosophical ideals of harmony between nature and humans. After Shanghai opened in the 19th century, European landscape culture came to the city. Traditional Chinese design principles merged with Western elements. This led to the emergence of a new original style of landscape art – the Haipai style. The purpose of this work is to study the stages of the development of garden art in Shanghai, compare classical gardens and the Haipai style, and determine the main differences and characteristics of the evolution. Classical gardens in Shanghai (Yuyuan, Xiaotaoyuan, etc.) belong to the school of southern Chinese garden art. They are characterized by artificial rocks, winding water bodies, small pavilions, and a closed internal composition.

---

Azerbaijan University of Architecture and Construction, Master's student, Baku, Azerbaijan
E-mail: liwenxia52@gmail.com

The main function of such gardens is secluded rest and spiritual contemplation. At the end of the 19th and the beginning of the 20th centuries, Shanghai became a major international city. European parks with open spaces, neat lawns, and straigh talleys began to influence local garden construction. Traditional closed private gardens gradually turned into public urban parks. A fusion of Chinese and European landscape traditions occurred. Thus, the Haipai style was formed. The Haipai style combines traditional Chinese elements (trees, stones, watersystems) and European urban planning solutions (open areas, public use, modern improvement). It is hybrid, open, and adapted to modern urban life.

The research shows that the landscape architecture of Shanghai has gone through two main stages of development: the classical traditional stage and the modern Haipai stage. Classical gardens are the heritage of ancient Chinese art. The Haipai style is the result of the interaction between Chinese and European cultures. The evolution shows how traditional landscape architecture retains its roots and at the same time adapts to the conditions of a modern metropolis. The Haipai style is a unique cultural phenomenon of modern Shanghai.

https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

# Comprehensive Experimental Analysis and Modeling of $CO_2$ Adsorption in a Fixed-Bed Column under Low-Pressure Conditions

**Ziya Agasafarli**

***Keywords:*** *fixed-bed adsorption, $CO_2$ separation, breakthrough analysis, mass transfer zone, low-pressure adsorption, process modeling, gas purification, adsorption dynamics*
***Açar sözlər:*** *sabit qatlı adsorbsiya, $CO_2$-nin ayrılması, çıxış əyrisinin analizi, kütlə ötürmə zonası, aşağı təzyiqdə adsorbsiya, prosesin modelləşdirilməsi, qazın təmizlənməsi, adsorbsiya dinamikası*

The separation of carbon dioxide ($CO_2$) from industrial emission streams is a key technological challenge in efforts to reduce greenhouse gas emissions. Fixed-bed adsorption systems are widely utilized due to their operational simplicity, robustness, and effectiveness in gas purification processes. The performance of such systems is governed by complex interactions between adsorbent properties, column configuration, and mass transfer mechanisms.

Azerbaijan State Oil and Industry University, Master`s student, Baku, Azerbaijan
E-mail: agaseferli9895@gmail.com

A detailed understanding of these factors is essential for optimizing system design and operation. The objective of this work is to experimentally investigate $CO_2$ adsorption behavior in a fixed-bed column packed with activated carbon under low-pressure conditions and to develop a predictive modeling framework describing the observed phenomena. Experimental studies were conducted using a laboratory-scale fixed-bed column constructed from transparent material to ensure operational control and monitoring.

The column was packed with granular activated carbon selected for its high adsorption potential. A controlled $CO_2/N_2$ gas mixture was introduced into the column at varying flow rates. The outlet $CO_2$ concentration was continuously measured using an online detection system. Breakthrough curves were generated to evaluate the dynamic response of the system.The effects of key operational variables, including gas velocity, bed height, and temperature, were systematically analyzed. In parallel, a mathematical model incorporating mass transfer resistance, axial dispersion, and adsorption equilibrium relationships was developed and validated against experimental data.

The experimental observations revealed that the outlet $CO_2$ concentration remained negligible during the initial phase of operation, indicating highly efficient adsorption. As the adsorption front progressed through the bed, a sharp increase in concentration was observed, forming a typical sigmoidal breakthrough curve.

Higher gas velocities resulted in shorter breakthrough times due to insufficient residence time for effective adsorption. Conversely, increasing the bed height significantly prolonged the adsorption period and improved overall system performance. The analysis of the mass transfer zone indicated its critical role

in determining column efficiency and utilization of the adsorbent. A narrower mass transfer zone corresponded to improved performance and more efficient use of the adsorbent material. The developed model showed strong agreement with experimental data, confirming its capability to accurately describe the adsorption process under varying operational conditions.

The results confirm that fixed-bed adsorption systems utilizing activated carbon are highly effective for $CO_2$ removal under low-pressure conditions. The system demonstrates stable operation and high efficiency, making it suitable for continuous industrial applications.

The combined experimental and modeling approach provides a comprehensive understanding of adsorption dynamics and enables optimization of key design parameters. The strong correlation between model predictions and experimental results highlights the reliability of the proposed framework. Overall, the fixed-bed adsorption process represents a viable and scalable solution for $CO_2$ capture from flue gases, offering both technical efficiency and environmental benefits.

*Elm və Təhsilin Əsasları* XX Beynəlxalq Elmi Konfrans / 05 iyun 2026 / 82-83
*Fundamentals of Science and Education* XX International Scientific Conference / 05 june 2026 / 82-83
https://doi.org/10.36719/2789-6919/XX/BK/ET/2026

# TEXNİKA ELMLƏRİ

# TECHNICAL SCIENCES

## Bir mərtəbəli polad konstruksiyada rabitəli ferma örtük sistemində qeyri-xətti statik analizinin aparılması

**Rüfət Hidayətov**

***Açar sözlər:*** *polad konstruksiya, örtük ferma, rabitə sistemi, P–Δ analiz, qeyri-xətti statik analiz, SAP2000, sərtlik, yerdəyişmə*
***Keywords:*** *steel structure, roof truss, bracing system, P–Δ analysis, nonlinear static analysis, SAP2000, stiffness, displacement*

Bir mərtəbəli polad konstruksiyalarda örtük fermalarının davranışı böyük ölçüdə sistemin sərtlik səviyyəsi və yerdəyişmələrin xarakteri ilə müəyyən olunur. Üfüqi yüklərin təsiri altında əlavə yerdəyişmələrin yaranması nəticəsində ikinci dərəcəli təsirlər, yəni P–Δ effekti formalaşır. Və bu təsirlər konstruksiyanın sabitliyinə və daxili qüvvələrin paylanmasına birbaşa təsir edir. Rabitə sistemləri isə məhz bu üfüqi sərtliyi artırmaq yolu ilə bu yan effektlərin güclənməsini məhdudlaşdırır. Aparılan bu tədqiqatda 30m aşırımlı Pratt tipli örtük fermosı və 9.25 m hündürlüklü sütunlardan ibarət rabitə sistemli konstruksiya SAP2000 proqramında statik nonlinear "P–Δ" rejimində analiz edilmişdir.

Azərbaycan Memarlıq və İnşaat Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: rufethidayetli@gmail.com

Hesablamalarda konstruksiyanın öz ölü yükü, külək və qar yükü Eurocode ULS kombinasiyaları əsasında uyğun yük şəkildə tətbiq edilmiş və analiz edilmişdir. Bu analiz bizə qeyri-xətti analiz xətti hesablamaya nisbətdə yerdəyişmə artımı, daxili qüvvələrin yenidən paylanması və sabitlik dəyişimini müəyyən etməyə imkan vermişdir.

Aparılan P–Δ analiz nəticələri rabitəli sistemin konstruktiv davranış xüsusiyyətlərini və ikinci dərəcəli təsirlər altında işləmə mexanizmini müəyyən etməyə imkan verir. Rabitə elementləri vasitəsi ilə bağlantı nöqtələrində yaranan yerdəyişmələr azalır və konstruksiyanın ümumi stabilliyi artırılır. P–Δ təsiri altında qüvvələrin paylanmasında müəyyən dəyişikliklər müşahidə olunur, lakin rabitəli sistemdə bu dəyişikliklər daha stabil və nizamlı xarakter daşıyır. Üfüqi yüklərin daha effektiv ötürülməsi hesabına struktur elementlərində qeyri-bərabər yüklənmə halları azalır, düyün nöqtələrində yaranan yerdəyişmələr azalır.

Lakin qeyd etmək lazımdır ki, tədqiqatda analiz edilən X-tipli örtük çapraz rabitə sistemi seysmik izolyator və ya bənzəri enerji udan (absorber) element kimi işləmir. Mühəndislikdə istifadə olunan izolyasiya sistemləri (elastomer yastıqlar, sürtünmə damperləri) konstruksiyaya ötürülən dinamik enerjini öz daxili mexanizmləri ilə udur. Lakin rabitə sistemi tamamilə fərqli prinsipə əsaslanır: o, sərtliyi, yük dağıdılma miqdarı və ötürmə yolunun optimallaşdırılması vasitəsilə üfüqi təsirlər qarşısında stabilliyin artırılmasını təmin edir. Yəni enerjini birbaşa azaltmır, yalnız onun fərqli elementlər arasında daha bərabər bölünməsini və kolonlara daha səmərəli şəkildə ötürülməsini təmin edir. Ümumilikdə, nəticələr göstərir ki, rabitə sistemi qeyri-xətti yüklənmə şəraitində konstruksiyanın deformasiya davranışını və sabitliyini tənzimləyərək onun ümumi etibarlılığının artırılmasında mühüm rol oynayır.

# İÇİNDƏKİLƏR

## CONTENTS

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Bənövşə Əsgərova**
Mətnin struktur və semantik xüsusiyyətləri ............................... 7
**Faidə İsayeva**
Ekzotik leksika, onun semantik konnotativ mənaları ............. 13
**Yaqut Əliyeva**
Müasir dövrdə kamança ifaçılığı............................................... 17
**Emil Qasımov**
Silahlı münaqişələr zamanı hədəf seçimi prosesində fərqləndirmə prinsipinin tətbiqi və hüquqi məsuliyyət məsələləri........................................................................... 21
**Maya Quliyeva, İlhamə Səfərova**
Rəqəmsal texnologiyalar əsasında kimya tədrisinin modernləşdirilməsi................................................................... 26
**Ləman Əmrahlı**
Qida istehsalı müəssisələrində risk əsaslı inteqrasiya olunmuş idarəetmə sistemlərinin optimallaşdırılması ............. 29
**Nuranə Teymurlu**
Haşım bəy Nərimanbəyovun İrəvan maarif mühitindəki rolu..................................................................... 34
**Nigar Aşumova**
Bank idarəetməsində daxili auditin strateji transformasiyası: Azərbaycan Beynəlxalq Bankı timsalında yeni yanaşmalar ... 40
**Şəlalə Camal**
Həsən Seyidbəylinin 1970–80-ci illər bədii filmlərində obrazlar sisteminin xüsusiyyətləri............................................ 45

**Ləman Əsgərli**
İnnovativ üsulların inkişafında texnologiyanın rolu ................ 49
**Ülkər Kərimova**
Turizm müəssisələrində aktivlərin dəyərsizləşməsi və yenidən qiymətləndirilməsi problemləri .................................. 53
**Turan Muxtarova**
Rəsmi-işgüzar üslubda tərcümə: dil qaydaları və üslub xüsusiyyətlərinin tətbiqi ........................................................... 59
**Zakir Həsənzadə**
Kinodramaturgiyada ədəbi portretin vizuallaşdırılması mexanizmi: İsmayıl Şıxlının "Dəli Kür" romanı əsasında ...... 63
**Tamara Mirzəlizadə, Xanpəri Vəlizadə Məmmədli, Aylin Məmmədzadə**
Z nəsli tələbələrinin universitet seçimində nəzəri yanaşmalar və müasir tendensiyalar ......................................... 65
**Maqsud Məmmədzadə**
Turizm startaplarının inkişafı: trendlər və perspektivlər ......... 69
**Nigar İsmayıllı**
F.Şopenin fortepiano yaradıcılığında müxtəlif janrların təcəssümü ......................................................................... 73
**Li Wenxia**
Evolution of Landscape Architecture in Shanghai: from Classical Gardens to Haipai Style ............................................ 77

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Ziya Agasafarli**
Comprehensive Experimental Analysis and Modeling of $CO_2$ Adsorption in a Fixed-Bed Column under Low-Pressure Conditions .......................................................................... 79

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Rüfət Hidayətov**
Bir mərtəbəli polad konstruksiyada rabitəli ferma örtük sistemində qeyri-xətti statik analizinin aparılması................... 82

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Yasamal r-nu, A.M.Şərifzadə
Tel.: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: bek.tedqiqat@aem.az

**Editorial address**
AZ1073, Baku city,
Yasamal dist., A.M.Sherifzade
Phone: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: bek.tedqiqat@aem.az

İmzalandı: 28.05.2026
Onlayn çap: 05.06.2026
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 5, 5 ç.v.
Sifariş: 179

aem.az saytında çap edilmişdir.
Ünvan: Bakı şəh., Yasamal r-nu,
A.M.Şərifzadə
Tel.: +994 50 209 59 68
e-mail: zengezurda1868@mail.ru

Signed: 28.05.2026
Online publication: 05.06.2026
Format: 60/84, 1/16
Stock issuance: 5, 5 p.s.
Order: 179

It has been published on aem.az
Address: Baku city, Yasamal dist.,
A.M.Sherifzade
Phone: +994 50 209 59 68
e-mail: zengezurda1868@mail.ru